RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 186 (9065) ÇƏRŞƏNBƏ, 31 avqust 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının və müttəfiqliyinin dünyada bənzəri yoxdur

Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana



Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

30 Avqust Zəfər Bayramının 100-cü ildönümü münasibətilə Sizə və Sizin simanızda qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

Yüz il əvvəl Dumlupınarda Qazi Mustafa Kamal Atatürkün komandanlığı altında qazanılmış şanlı qələbə qardaş xalqınızın qəhrəmanlıqlarla zəngin olan tarixinin ən şərəfli səhifələrindən biridir. Türkiyənin müstəqillik və istiqlaliyyət mübarizəsi salnaməsinə qızıl hərflərlə həkk olunmuş bu böyük zəfər xalqınızın sarsılmaz iradəsinin, yenilməzliyinin, birliyinin və şücaətinin bariz nümunəsidir. Vətənlərinin azadlığı və müstəqilliyi yolunda mərdlik və rəşadət göstərmiş, canlarını vermiş şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirik.

Möhtəşəm zəfərdən ötən bir əsr sonra bu gün qardaş Türkiyə Sizin rəhbərliyiniz ilə hərtərəfli inkişaf edən, güclü və qüdrətli bir ölkəyə çevrilmişdir. Dünyada və regionda baş verən mürəkkəb proseslərdə qətiyyətli və prinsipial mövqeyi, sülhün, haqq-ədalətin bərqərar olması üçün ardıcıl səyləri ilə Türkiyə beynəlxalq aləmdə nüfuz qazanmışdır. Ölkənizin bütün sahələrdə əldə etdiyi uğurları bizi olduqca fərəhləndirir.

Xüsusi qürur hissi ilə qeyd edə bilərik ki, "Bir millət, iki dövlət" prinsipinə əsaslanan Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının və müttəfiqliyinin dünyada bənzəri yoxdur. Dövlətlərarası münasibətlərimizin gündən-günə genişlənməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur. Əminəm ki, tarixən bir-birinə dəstək və dayaq olmuş qardaş xalqlarımızın iradəsindən, eləcə də Şuşa Bəyannaməsindən qaynaqlanan strateji müttəfiqliyimizin möhkəmlənməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın daha da dərinləşməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Əziz Qardaşım, bu əlamətdar tarix münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2022-ci il*

# Qalib Azərbaycan gəncliyi



Gənclik bu gün ölkəmizdə aparılan köklü islahatların əsas aparıcı qüvvəsini təşkil edir. Azərbaycan Respublikasının Prezidenti gənclərə yüksək etimad göstərir, müəyyən etdiyi strateji vəzifələrin yerinə yetirilməsində onlara böyük ümid bəsləyir.

Biliklərə əsaslanan iqtisadiyyatın qurulmasında, yeni texnologiyaların tətbiqində, respublikamızda genişmiqyaslı islahatların gerçəkləşdirilməsində bu sosial təbəqənin rolu getdikcə artmaqdadır. Azərbaycançılıq məfkurəsi, milli-mənəvi dəyərlərə sədaqət ruhunda yetişdirilən nəsil dövlətimizin iqtisadi və mədəni inkişafında mühüm rol oynayır, ildən-ilə öz potensiallarının gerçəkləşdirilməsi üçün daha geniş imkanlar əldə edir.

### İdmana qayğı - sağlam gənclik

İdmanın inkişafı isə hər bir xalqın mədəni tərəqqisinin əsas göstəricilərindən biridir. Bu sahə ictimai-siyasi hadisə kimi xüsusilə gənclərin həyatında müstəsna əhəmiyyət kəsb edir. Dövlət tərəfindən göstərilən qayğı idmançılarımızda siyasi iradə, liderlik, özünütəsdiq kimi keyfiyyətləri aşılamağa kömək göstərir. Məhz mənəvi dəyərləri layiqincə qiymətləndirən gənclərimiz yarış meydanlarında özlərini həm ifadə, həm də təsdiq edə bilirlər. Sosial dəyərlərin inkişafına səbəb olan yarışlarda güclülərin üzə çıxması idmanın yaradıcı xarakterindən asılıdır.

Bu sahədə müsbət nəticələrə nail olmaq üçün dövlət səviyyəsində tədbirlər görülür. Estetik mədəniyyət, şəxsiyyətin fiziki və mənəvi inkişafını təmin etmək dünya olimpiya hərəkatının ən ümdə məqsədlərindəndir.

→ 6

## Şarl Mişel İlham Əliyevə zəng edib

Avqustun 30-da Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi və Avropa İttifaqının təşkilatçılığı ilə avqustun 31-də Brüsseldə keçiriləcək görüşün gündəliyinə aid məsələlər müzakirə olunub.

***Prezidentin Mətbuat Xidməti***



## Qoşulmama Hərəkatı getdikcə güclənir

Azərbaycanın təşkilata uğurlu sədrliyi beynəlxalq səviyyədə təqdir edilir

"Qoşulmama Hərəkatı beynəlxalq problemlərin həllində müsbət rol oynayır. İndiki dövrdə çoxqütblü, ədalətli və demokratik dünya düzəninin formalaşmasında Qoşulmama Hərəkatı müsbət potensiala malikdir". Bu sözləri Rusiyanın xarici işlər naziri Sergey Lavrov müsahibəsində deyib. Nazir qeyd edib ki, BMT-də 120 səsə malik Qoşulmama Hərəkatı bu beynəlxalq təşkilatın qərarlarına ciddi təsir göstərə bilir.

→ 4

## SOCAR-ın yeni hədəfləri

Xərcləri optimallaşdırmaq, gəlirləri artırmaq

Qeyd edək ki, sözügedən proses şaquli inteqrasiya prinsipi əsasında həyata keçirilir. Yəni SOCAR-ın neft emalı və neft kimya müəssisələri dəyər zənciri üzrə bir-biri ilə inteqrasiyalı fəaliyyət göstərir. Bu da güclü sinerji yaradılaraq xərclərin optimallaşdırılmasına və gəlirlərin artırılmasına hədəflənir. Beləliklə, hazırda Heydər Əliyev adına NEZ, "Azərikimya" İB və "SOCAR Polymer" müəssisələri vahid dəyər zənciri üzrə bir-birini xammalla təmin edir. Bu müəssisələr arasında şaquli inteqrasiya əsasında güclü sinerji yaradılaraq istehsalat prosesində səmərəliliyin artırılması, fasiləsiz istehsalatın təmin edilməsi hədəflənir. Bütün bunlar SOCAR-ın xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasına xidmət edir.

Xatırladaq ki, 2019-cu ilin sonlarında SOCAR-ın Türkiyədəki törəmə müəssisələri - "Petkim", "STAR" NEZ, "SOCAR Petrol Ticarət" və "SOCAR Depolama" arasında şaquli inteqrasiyanın təmin edilməsi və güclü sinerjinin yaradılması məqsədilə "Neft-emalı və Neft-kimya Biznes Bölməsi" yaradılmışdır.

→ 5

## Azərbaycan itkin düşənlərinə görə ən ağrılı problem yaşayan ölkələrdəndir

Ermənistanın təcavüzü nəticəsində minlərlə soydaşımızın taleyindən bu günə kimi xəbər yoxdur

30 Avqust Beynəlxalq İtkinlər Günü idi. BMT Baş Assambleyasının Qətnaməsi əsasında 2011-ci ildən qeyd edilən bu günün əsas məqsədi dünyada minlərlə itkin düşmüş, müharibə meydanında həlak olmuş naməlum şəxslərin, tutulub gizli yerlərdə saxlanılan və yaxud gizli şəkildə öldürülmüş, yaşamaq, azadlıq kimi təbii hüquqları, ümumilikdə insan hüquqları pozulmuş şəxslərin xatirəsini yad etməkdir.

Dünyanın müxtəlif ərazilərində yüz minlərlə şəxs istər silahlı münaqişələr, istər müharibələr, istər təbii fəlakətlər nəticəsində, istərsə də digər səbəblərdən, yəni oğurlanaraq, qaçırılaraq itkin düşüb. Beynəlxalq humanitar hüquqa müvafiq olaraq hərbi əsirlər onları əsir götürən hər hansı hərbi hissənin, yaxud da konkret hansısa xüsusi şəxslərin nəzarəti altında deyil, birbaşa düşmən dövlətin himayəsi altında olmalıdır və onlar heç bir halda hərbi hissələrdə saxlanıla bilməz.

→ 4

## Azərbaycan mühüm tranzit ölkə kimi statusunu möhkəmləndirir



→ 5

## Azərbaycan və Belarus arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir



Avqustun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya zəng edib.

Prezident İlham Əliyev Aleksandr Lukaşenkonu ad günü münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulayıb.

Belarus Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları ikitərəfli münasibətlərin uğurlu inkişafını qeyd edib, əməkdaşlığın perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

## Ortaq tarixə, qardaşlığa və qarşılıqlı hörmətə əsaslanan dövlətlərarası əlaqələrin inkişafı məmnunluq doğurur

### Qırğız Respublikasının Prezidenti zati-aliləri cənab Sadır Japarova



Hörmətli Sadır Nurqojoyeviç!

Qırğız Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Gələn il biz ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünü qeyd edəcəyik. Ortaq tarixə, qardaşlığa və qarşılıqlı hörmətə əsaslanan dövlətlərarası əlaqələrimizin inkişafı məmnunluq doğurur.

Cari ilin aprelində Azərbaycana rəsmi səfəriniz zamanı əldə olunan razılaşmalar və imzalanan bir sıra sənədlər, xüsusilə də "Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Bəyannamə" və "Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının yaradılması haqqında Memorandum" münasibətlərimizin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsinin bariz nümunəsidir.

İnanıram ki, Azərbaycan-Qırğızıstan əlaqələrinin mövcud potensialından daha səmərəli istifadə olunması, qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımızın həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə genişlənməsi naminə bundan sonra da birgə səylərimizi davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Qırğız Respublikasına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2022-ci il*

## Milli Məclisin Sədri Sahibə Qafarova türkiyəli həmkarına təbrik məktubu göndərib



Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyənin Zəfər Bayramı münasibətilə Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopa təbrik məktubu göndərib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Sahibə Qafarova 30 Avqust Zəfər Bayramının 100-cü ildönümü münasibətilə həmkarına, Türkiyə Böyük Millət Məclisinin üzvlərinə və qardaş Türkiyə xalqına təbriklərini ünvanlayıb.

Məktubda bu möhtəşəm zəfərin qardaş Türkiyə xalqının şanlı tarixinin ən parlaq səhifələrindən biri olduğu qeyd edilərək Vətəninin istiqlaliyyəti uğrunda canlarını verən şəhidlərin əziz xatirəsi bir daha dərin hörmət və ehtiramla yad olunur.

Qardaş Türkiyənin bütün sahələrdə əldə etdiyi nailiyyətlərin, beynəlxalq aləmdə qazandığı nüfuz və rəğbətin vurğulandığı məktubda həmçinin bildirilir ki, Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətləri, çoxşaxəli əməkdaşlıq əlaqələri hazırda özünün ən yüksək zirvəsindədir. Ali qanunvericilik orqanlarımızın birgə fəaliyyəti bu münasibətlərin daha da gücləndirilməsinə töhfə verir.

Milli Məclisin Sədri inandığını bildirib ki, birgə səylərimizlə parlamentlərarası əlaqələrimizin ölkələrimizin və xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da möhkəmləndirilməsinə və genişləndirilməsinə nail olacağıq.

***"Azərbaycan"***

## Özbəkistan Respublikasının mədəniyyət xadimlərinin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında mədəni əlaqələrin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər "Dostluq" ordeni ilə təltif edilsinlər:

İsmayılov Haşimjon
Nəsirli Əli Heydər oğlu
Urinbayev Kamoliddin Turdimuratoviç.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 avqust 2022-ci il*

## N.M.Abdullayevaya "Xalq artisti" fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında mədəni əlaqələrin inkişafında xidmətlərinə görə Nəsibə Məlikovna Abdullayevaya "Xalq artisti" fəxri adı verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 avqust 2022-ci il*

## Moskvada Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası üzrə Komissiyanın ikinci görüşü keçirilib

Avqustun 30-da Moskva şəhərində Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə müvafiq olaraq, iki ölkə arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının, həmçinin Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası, sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın ikinci görüşü keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdən əvvəl Rusiya Federasiyası hökumətinin sədrinin müavini A.Overçuk Ş.Mustafayev və M.Qriqoryan ilə görüşüb, komissiyaların işinin davam etdirilməsini alqışlayıb.

Tərəflər təşkilati və prosedur məsələləri müzakirə edib, komissiyaların gələcək işi və birgə fəaliyyətinin reqlamenti üzrə predmetli fikir mübadiləsi aparıblar.

Görüşün yaxşı təşkilinə görə Rusiya tərəfinə minnətdarlıq ifadə edilib.

Üçüncü görüşün razılaşdırılmış müddət ərzində keçirilməsinə dair razılıq təsdiqlənib.

## Müdafiə naziri Ankarada Heydər Əliyev Parkını ziyarət edib

Türkiyə Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov avqustun 30-da Ankaradakı Heydər Əliyev Parkını ziyarət edib.







Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, general-polkovnik Z.Həsənov Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin parkdakı abidəsi önünə əklil qoyub, dahi şəxsiyyətin xatirəsinə dərin ehtiramını bildirib.

## Azərbaycanın müdafiə naziri Türkiyənin Quru Qoşunları Ali Hərbi Məktəbinin buraxılış mərasimində iştirak edib



Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun Türkiyədə işgüzar səfəri davam edir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində general-polkovnik Z.Həsənov Türkiyə Respublikasının Quru Qoşunları Ali Hərbi Məktəbinin növbəti buraxılış mərasimində iştirak edib.

# Bakıda Türkiyənin Zəfər bayramı qeyd edilib

Avqustun 30-da Türkiyənin Azərbaycandakı səfirliyində qardaş ölkənin Zəfər bayramı münasibətilə rəsmi qəbul təşkil edilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə iki ölkənin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad olunub, Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Türkiyənin Azərbaycandakı səfiri Cahid Bağçı Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın 30 Avqust - Zəfər Bayramı münasibətilə təbrik məktubunu oxuyub.

Səfir Türkiyə Respublikasının qurulduğu gündən bu günədək terror təşkilatlarına qarşı mübarizəsini qərarlılıqla davam etdirdiyini bildirib. O, türk xalqının və Türkiyə Silahlı Qüvvələrinin Mustafa Kamal Atatürkün rəhbərliyi ilə 1922-ci il avqustun 30-da tarixi zəfər qazandığını qeyd edib.

"Zəfərin nə olduğunu şübhəsiz, qardaş Azərbaycan yaxşı bilir. Qarabağın 30 illik işğalı Türkiyənin siyasi və mənəvi dəstəyi ilə 44 günlük Vətən müharibəsi nəticəsində Qələbə ilə yekunlaşıb", - deyə Cahid Bağçı diqqətə çatdırıb.

Türkiyənin son illərdə inkişaf edərək dünyada böyük güc mərkəzinə və söz sahibinə çevrildiyini vurğulayan səfir ölkəsinin mühüm beynəlxalq məsələlərin həllində fəal iştirak etdiyini vurğulayıb. Bu xüsusda koronavirusa qarşı mübarizədə, dünyada taxıl qıtlığı böhranının və digər problemlərin həllində mühüm rol oynadığını diqqətə çatdırıb.



Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev qardaş türk xalqını və Türkiyə Silahlı Qüvvələrinin bütün şəxsi heyətini 30 Avqust - Zəfər Bayramı münasibətilə təbrik edərək bildirib ki, yüz il əvvəl qazanılmış bu Zəfər Türkiyənin şanlı tarixinin ən parlaq qələbələrindəndir.

Baş Qərargah rəisi qeyd edib ki, bu gün Türkiyə-Azərbaycan münasibətləri Ulu Öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi ilə bütün istiqamətlərdə, o cümlədən müdafiə sahəsində də uğurla inkişaf edir. Qardaş ölkələrimiz arasında münasibətlərin bugünkü səviyyəyə çatmasında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın müstəsna rolu var.

Ölkələrimiz arasındakı tarixi, dini və mədəni əlaqələrin hərbi sahədə mövcud əməkdaşlığın inkişafı üçün yeni imkanlar yaratdığını vurğulayan general-polkovnik Kərim Vəliyev deyib: "Hazırda Azərbaycan Ordusunun müasir ordu modelinə, xüsusilə də Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində zəruri addımlar atılır. Ölkələrimiz arasındakı qarşılıqlı hərbi əməkdaşlıq birliyimizi daha da möhkəmləndirir. Bu birlik regionda əmin-amanlığın və sabitliyin qorunmasına töhfə verir".

Xarici işlər nazirinin müavini Elnur Məmmədov Zəfər bayramı münasibətilə Türkiyəni təbrik edib, bu qələbənin Türkiyənin bu günü və gələcəyi üçün güclü zəmin yaratdığını bildirib. O, əsrlərə söykənən dövlətçilik tarixi ilə qardaş Türkiyənin bu gün beynəlxalq arenada mühüm rol oynadığını, Türkiyənin bir çox qlobal məsələlərin həll edilməsində etibarlı vasitəçilik rolu olduğunu vurğulayıb.

Nazir müavini torpaqlarımızın işğaldan azad olunması dövründə bütün təzyiqlərə baxmayaraq, Türkiyənin ölkəmizin haqq səsinin eşidilməsi üçün daim dəstək göstərdiyini diqqətə çatdırıb. Türkiyənin haqqın tərəfində olduğunu deyən E.Məmmədov qardaş ölkənin bizə göstərdiyi dəstəyin xalqımız tərəfindən hər zaman xatırlanacağını bildirib.

Nazir müavini həmçinin Şuşa Bəyannaməsinin imzalanması ilə ölkələrimiz arasındakı münasibətlərin müttəfiqlik səviyyəsinə yüksəldiyini qeyd edib. O, ölkələrimiz arasında münasibətlərin ən yüksək səviyyədə olduğunu və bütün sahələrdə əməkdaşlığın davam etdirildiyini diqqətə çatdırıb.

Sonda Türkiyənin milli müdafiə naziri Hulusi Akarın, Türk Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerin, Quru Qoşunları Komandanı ordu generalı Musa Avseverin, Hərbi Dəniz Qüvvələrinin Komandanı admiral Adnan Özbalın, Hərbi Hava Qüvvələrinin Komandanı ordu generalı Atilla Gülanın təbrik videomüraciətləri nümayiş etdirilib.

Tədbirdə rəsmi şəxslər, Milli Məclisin deputatları, xarici ölkələrin Azərbaycandakı səfirləri, hərbi attaşelər, beynəlxalq təşkilatların təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

# Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2022-ci ilin sentyabr ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | 1,19 |
| **Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | 2,16,23 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi**<br>Qasımov Azər Məhəmməd oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | 7 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | 9 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | 20 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri**<br>Əliyev Məhərrəm Abış oğlu | 21 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 22 |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | 23 |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | 26 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | 27 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | 28 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası**<br>**Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | 29 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111**

# Azərbaycan İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında Konvensiya çərçivəsində öhdəliklərini yerinə yetirməyə tam sadiqdir

Xarici İşlər Nazirliyi Azərbaycanın onuncu - on ikinci dövri hesabatlarına dair İrqi Ayrı-seçkiliyin Ləğv edilməsi üzrə Komitənin yekun müşahidələri ilə bağlı bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir:

"Azərbaycan Respublikası hökuməti İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında Konvensiya (CERD) üzrə Komitənin bu yaxınlarda keçirilən sessiyasında iştirak etməkdən və Konvensiyaya uyğun olaraq onuncu - on ikinci dövri hesabatlarını komitəyə təqdim etməkdən məmnunluq duyur. Azərbaycan çoxsaylı müxtəlif etnik, mədəni və dini qruplardan ibarət bir ölkə kimi onunla eyni multikultural dəyərləri təşviq edən CERD çərçivəsində öz öhdəliklərini yerinə yetirməyə tam sadiqdir.

Komitənin Azərbaycanın hesabatları ilə bağlı son yekun müşahidələrində qeyd edildiyi kimi, Azərbaycan CERD-in irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi ilə bağlı məqsədinə çatmaq üçün müsbət addımlar atıb. Məsələn, 2017-ci ildən Azərbaycanda qaçqınların və vətəndaşlığı olmayan şəxslərin, eləcə də hər irqdən, etnik mənsubiyyətdən olan uşaqların hüquqlarını təmin etmək üçün Azərbaycan bir sıra hüquqi və siyasi tədbirlər həyata keçirib. 2018-ci ildə Azərbaycanda ədliyyə sisteminin inkişafı üzrə Dövlət Proqramı qəbul edilib və onun məqsədi tərəfdaş ölkələrlə təlimlər və mübadilələrin həyata keçirilməsi də daxil olmaqla, məhkəmə sisteminin səmərəliliyini və keyfiyyətini artırmaqdır. Azərbaycan həmçinin komitənin bəzi tövsiyələrini özündə əks etdirən "İrqi ayrı-seçkiliyin qarşısının alınması və ləğv edilməsi haqqında" qanun layihəsini qəbul etməklə ayrı-seçkiliyə qarşı öz daxili qanunvericiliyini daha da gücləndirməyə çalışır.

CERD Komitəsi həmçinin Azərbaycanın irqi ədavətin qızışdırılmasına qarşı mövcud qanunlarını gücləndirmək üçün atdığı addımları, xüsusilə də Azərbaycan Cinayət Məcəlləsinin 283-cü maddəsinə və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanuna dəyişiklikləri vurğulayıb. CERD Komitəsi xüsusilə qeyd edib ki, bu düzəlişlər etnik, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin qızışdırılmasına görə daha sərt cəzalar tətbiq edir, zorakılıq və dini ekstremizmi təbliğ edən bu cür amillərin və məlumatların internet və sosial mediada yayılmasını qadağan edir.

Azərbaycan CERD-in pozuntularına görə məsuliyyətin təmin edilməsi, o cümlədən mümkün pozuntularla bağlı cinayət təhqiqatının başlanması və bunun üçün kifayət qədər əsas olduqda ehtimal olunan təqsirkarların cinayət məsuliyyətinə cəlb edilməsi üçün birgə səy göstərib. Bundan əlavə, Azərbaycan CERD tərəfindən qorunan əsas dəyərlərə sadiqdir və hər hansı milli və ya etnik qrupa qarşı nifrət və ya zorakılığı təşviq edən bəyanat və ya hərəkətləri qəbul etmir.

Azərbaycan etnik, dini və ya mənsubiyyətindən asılı olmayaraq, müvafiq qanunlar və Konstitusiya ilə müəyyən edildiyi kimi, ayrı-seçkiliyə yol verilmədən, o cümlədən azad edilmiş ərazilərdə mədəni, dini və tarixi irsin qorunmasında beynəlxalq standartlara riayət etməklə mədəni irsin qorunmasına sadiqdir.

Azərbaycanın komitəyə tövsiyə etdiyi kimi, Azərbaycan irs obyektlərinə girişlə bağlı yeni təhlükəsizlik tədbirləri həyata keçirib, obyektlərin vəziyyətinə mütəmadi olaraq nəzarət edir və tikinti briqadalarına yenidənqurma işləri zamanı ərazilərə ziyan vurma riskini minimuma endirmək üçün prosedurlar barədə təlimatlar verib. Azərbaycan bu yerlərin mühafizəsi üçün göstərdiyi səylərinin UNESCO-nun texniki missiyası tərəfindən müstəqil nəzarətin təşkil edilməsinin önəmliliyi ilə komitənin razılaşdığını görməkdən xüsusilə məmnun qalıb. Azərbaycan 2005-ci ildən əvvəl açıq şəkildə belə bir missiyaya çağırış edib və missiyanın mümkün qədər tez həyata keçirilməsinə yardım etmək öhdəliyinə sadiqdir. Azərbaycan 2022-ci ilin may ayında çoxsaylı konfessiyaların dini obyektlərinin qorunması üzrə səyləri yüksək qiymətləndirən ICESCO-nun oxşar missiyalarını alqışlayıb.

Yüz minlərlə məcburi köçkünün işğaldan azad edilmiş ərazilərə qayıtmasını həyata keçirməklə Azərbaycan işğaldan əvvəl regionda məskunlaşmış çoxmillətli və müxtəlif icmaların yenidən formalaşmasına da sadiqdir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin bu ilin aprelində səsləndirdiyi - "Azərbaycan və burada yaşayan bütün etnik qruplar, o cümlədən ermənilər sülh və ləyaqət içində yaşayırlar" - bəyanatı ilə ən yüksək səviyyədə təsdiq olunduğu kimi, Azərbaycan etnik, dini və ya dil mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlar üçün açıqdır. Dövlətimizin başçısı bəyanatında təsdiq etdi ki, "Qarabağda yaşayan ermənilərin hüquqları və təhlükəsizliyi... Azərbaycan dövləti tərəfindən təmin olunacaq".

Azərbaycan CERD Komitəsi ilə konstruktiv dialoqu qiymətləndirir, komitənin fikir və tövsiyələrini müvafiq olaraq nəzərə alır. Azərbaycan irqindən, rəngindən, mənşəyindən, milli və ya etnik kimliyindən asılı olmayaraq öz ərazisində yaşayan hər kəsin hüquq və ləyaqətini bərabər əsasda dəstəkləməyə sadiq qalır, qlobal miqyasda irqi ayrı-seçkiliyin bütün forma və təzahürlərinin aradan qaldırılması kimi yekun məqsədə nail olmaq üçün fəaliyyətini davam etdirəcək".

# Daha 27 Vətən müharibəsi iştirakçısı polis orqanlarında xidmətə qəbul olunub

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Sıra baxışında kütləvi informasiya vasitələrində, o cümlədən Daxili İşlər Nazirliyinin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində verilmiş elana uyğun olaraq nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 118 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 27 nəfəri Vətən müharibəsinin iştirakçısı olub.

Gənclər qarşısında çıxış edən nazir Vilayət Eyvazov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ölkəmizin hərtərəfli inkişafında, həmçinin Vətən müharibəsində gənclərimizin böyük rolu olduğunu, ölkəmizin ümumi inkişafına töhfə verdiklərini vurğulayıb. O, daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə fəaliyyətlərində uğurlar arzulayıb və tövsiyələrini verib.

# Baş prokuror İranda rəsmi görüşlər keçirib

Xəbər verildiyi kimi, İran İslam Respublikasının Baş prokuroru Məhəmməd Cəfər Montazerinin dəvəti ilə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Tehrana işgüzar səfəri başlayıb.



AZƏRTAC xəbər verir ki, ilk olaraq İran İslam Respublikasının Baş Prokurorluğunda ikitərəfli görüş keçirilib. Azərbaycanlı həmkarını səmimi salamlayan İranın Baş prokuroru Məhəmməd Cəfər Montazeri bütün sahələrdə olduğu kimi, ölkələrimizin prokurorluq orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib.

Baş prokuror Kamran Əliyev yüksək qonaqpərvərliyə və səmimi qəbula görə həmkarına minnətdarlığını ifadə edərək ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinə yönələn səfər zamanı baş tutacaq görüşlərin müsbət nəticə verəcəyinə ümidvar olduğunu qeyd edib. İki ölkənin baş prokurorluqları arasında belə geniş formatda görüşün ilk dəfə keçirilməsi məmnunluqla vurğulanıb.

Baş prokuror Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi dövründə İran tərəfinə ölkəmizə göstərilən mənəvi dəstəyə görə təşəkkürünü bildirib.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, ikitərəfli qarşılıqlı fəaliyyətin vacibliyi vurğulanaraq hər iki ölkə vətəndaşlarının hüquqlarının qorunması, sərhəd, gömrük, ekoloji və humanitar məsələlər müzakirə edilərək narkotiklərin qanunsuz dövriyyəsi, cinayət işləri üzrə hüquqi yardım, ekstradisiya və məhkumların verilməsi problemləri müzakirə edilib. İki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilib.

Kamran Əliyev iranlı həmkarını ölkəmizə işgüzar səfərə dəvət edib. Qurumlarımız arasında əməkdaşlıq haqqında memorandumun imzalanması təklif olunub.

Sonra Baş prokuror İranın ədliyyə naziri Əmin Hüseyn Rəhimi ilə görüş keçirib. Nazir 44 günlük Vətən müharibəsində ölkəmizi parlaq qələbə münasibətilə təbrik edib. Kamran Əliyev təbrikə görə təşəkkürünü bildirərək ölkələrimizin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayıb.

İki ölkə arasında hüquqi əməkdaşlıq, o cümlədən ekstradisiya, məhkumların verilməsi və digər maraq kəsb edən mövzular müzakirə edilərək bu sahədə məlumat mübadiləsinin vacibliyi vurğulanıb, faydalı fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Baş prokuror ölkəmizin Tehrandakı səfirliyinə gedərək xalqımızın Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin büstünü ziyarət edib, əziz xatirəsi ehtiramla yad olunub.

Görüşlərdə ölkəmizin İran İslam Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Əli Əlizadə iştirak edib.

Nümayəndə heyətinin səfəri davam edir.

# BMT-də akkreditə olunan xarici KİV nümayəndələri Gəncədə və Füzulidə olublar





BMT-də akkreditə olunan xarici KİV nümayəndələri işğaldan azad olunmuş ərazilərə səfəri çərçivəsində Gəncə şəhərində erməni terroru nəticəsində həlak olan şəhər sakinlərinin xatirəsini anıblar.

Qonaqlar baş verən terror aktı barədə məlumatlandırılıblar. Bildirilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri 44 günlük Vətən müharibəsində beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla, yaşayış məntəqələrini ağır artilleriyadan - "Toçka-U", "Smerç", "Skad" və digər raketlərlə atəşə tutub. Bu hücumların həyata keçirilməsi çoxlu sayda dinc insanın qətlə yetirilməsi məqsədi daşıyıb. Baxmayaraq ki, dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir, Ermənistan beynəlxalq hüquqa məhəl qoymadan müharibə cinayətlərini davam etdirib.

Qeyd olunub ki, 44 günlük müharibə dövründə Ermənistan cəbhədən yüzlərlə kilometr aralıda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncəni 4, 5, 8, 11 və 17 oktyabr tarixlərində raket və ağır artilleriyadan atəşə tutub, nəticədə 26 dinc sakin həlak olub, 175 nəfər yaralanıb.

Ermənistan silahlı qüvvələrinin raket və ağır artilleriya hücumları nəticəsində Bərdə rayonunda isə 29 nəfər həlak olub, 112 nəfər yaralanıb.

Naftalan şəhərində Qaşaltı-Qaraqoyunlu kəndində yerləşən, kənd sakini Qurbanov Elbrus İsa oğlunun evinə top mərmisinin düşməsi nəticəsində bir ailə (5 nəfər) tamamilə məhv olub.

Ümumilikdə Ermənistanın hərbi təcavüzü nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla, 93 mülki şəxs həlak olub, 454 mülki vətəndaş yaralanıb. 12292 yaşayış və qeyri-yaşayış sahəsinə, 288 nəqliyyat vasitəsinə, 1018 fermer təsərrüfatına, mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

* * *

Avqustun 30-da BMT-də akkreditə olunan xarici KİV nümayəndələri Ermənistanın işğalından azad olunmuş Füzuli rayonuna səfər ediblər.

Qaraxanbəyli kəndi ərazisində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı tərəfindən qonaqlara ermənilərin işğal zamanı törətdikləri vəhşiliklər, Ermənistan tərəfindən ərazilərin minalarla çirkləndirilməsi, bu istiqamətdə aparılan təmizləmə işləri barədə məlumat verilib.

Səfər iştirakçıları sonra Merdinli kəndinin erməni barbarlığı ilə tanış olublar. Qonaqlar 30 illik işğal dövründə ermənilərin ölkəmizə qarşı törətdiyi cinayətlər barədə ətraflı məlumatlandırılıblar. Bildirilib ki, erməni vandalları işğal etdikləri şəhər və kəndlər kimi, Merdinlini də talayıb, Yer üzündən siliblər. Bütün evlər, sosial obyektlər dağıdılıb, təsərrüfatlar məhv edilib. Düşmən Merdinli kəndindəki məsciddən mal-qara tövləsi kimi istifadə etməklə, azərbaycanlılara qarşı nifrətlərini nümayiş etdiriblər. Kənd qəbiristanlığı da erməni vandalizminə məruz qalıb - məzarlar dağıdılıb, məzar daşları uçurulub.

Xarici KİV nümayəndələri Füzuli Beynəlxalq Hava Limanına da gəliblər. Məlumat verilib ki, 44 günlük Zəfər yürüşü zamanı azad edilən torpaqlarda Azərbaycan tərəfindən irimiqyaslı layihələr həyata keçirilir, tikinti-quruculuq işləri aparılır. Belə layihələrdən biri də Füzuli, Zəngilan və Laçın hava limanlarının inşasıdır. Artıq Füzuli Beynəlxalq Hava Limanının inşası başa çatıb. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Hava limanı xarici ölkələrdən təyyarələr qəbul edir.

Jurnalistlər sonra Füzuli rayonundakı Aşağı Köndələnçay su anbarında olublar. Bildirilib ki, 1993-cü ildə Füzuli rayonu erməni qəsbkarları tərəfindən işğal ediləndən sonra su anbarının Azərbaycan tərəfindən istismarı qeyri-mümkün olub. İşğal zamanı torpaqlarımızda ekoloji terror törədən ermənilər təsərrüfat işlərində suya ciddi ehtiyac olduğu mövsümlərdə suyun qarşısını kəsir, yaxud suya ehtiyac olmayan vaxtlarda isə anbarlardan suyu buraxaraq ciddi problemlər yaradırdılar.

Qonaqlar Füzuli şəhərinin mərkəzində də erməni vəhşiliyinin şahidi olublar. Diqqətə çatdırılıb ki, şəhər tamamilə viran edilib, yaşayış binaları ilə bərabər, tarixi-mədəni abidələr də dağıntılara məruz qalıb. Şəhərin təbiəti, ağaclar və yaşıllıqlar, su mənbələri, kəhriz və bulaqlar da məhv edilib.

Media nümayəndələrinə həmçinin Füzuli şəhərinin bərpası istiqamətində görüləcək işlər barədə də məlumat verilib.

Füzulidə erməni barbarlığı ilə tanış olan qonaqlar Şuşa şəhərinə yola düşüblər.

***AZƏRTAC***

# Qoşulmama Hərəkatı getdikcə güclənir

## Azərbaycanın təşkilata uğurlu sədrliyi beynəlxalq səviyyədə təqdir edilir

*Əvvəli 1-ci səh.*

Qeyd edək ki, Qoşulmama Hərəkatı (QH) heç bir hərbi bloka qoşulmayan 120 dövləti birləşdirir. BMT-dən sonra dünya ölkələrini bir araya gətirən ikinci böyük təşkilatdır. Hərəkata sədrlik müxtəlif regional qruplardan olan dövlətlər arasında üç ildən bir rotasiya edilir. Müvafiq regional qrupdan namizədliyi təqdim olunan dövlət təşkilatın sammiti vaxtı bütün üzv dövlətlərin razılığı ilə sədr seçilir. Sədr dövlət üçillik sədrlik müddətinin əvvəlində zirvə görüşünə və sədrliyinin axırıncı ilində nazirlər iclasına evsahibliyi edir. Ölkəmiz Qoşulmama Hərəkatına 2011-ci ildə üzv olub və 2019-cu ildən təşkilatın sədridir.

### Uğurlu sədrlik - qazanılan inam və etimad

Azərbaycan təşkilata çətin bir dövrdə - COVID-19 pandemiyasının dünyanı təsir altına aldığı, bütün sahələrdə tənəzzül yaşandığı bir vaxtda sədrlik etməyə başlayıb. Ancaq uğurlu sədrliyi ilə Qoşulmama Hərəkatının fəaliyyətinə mühüm töhfələr verib. Buna görə də Azərbaycanın sədrliyi təşkilatın təmsilçisi olan ölkələrin yekdil rəyi ilə daha bir il - 2023-cü ilin sonunadək uzadılıb.

Qısa müddət ərzində Azərbaycan bu təsisatda böyük nüfuz və inam qazanıb. Belə ki, bu dövrdə Azərbaycan beynəlxalq arenada COVID-19-la mübarizədə fəal ölkələrdən biri idi və ölkəmiz Qoşulmama Hərəkatının onlayn Zirvə toplantısının keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Beləliklə, 2020-ci ilin may ayında Zirvə toplantısı keçirildi. Bunun nəticəsində həmin ilin dekabr ayında COVID-19-la mübarizəyə həsr edilmiş BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması ilə bağlı üzv dövlətlər tərəfindən dəstəklənmiş təşəbbüs irəli sürüldü. İlham Əliyevin də bildirdiyi kimi, Azərbaycanın səyləri təkcə həmrəyliyin gücləndirilməsi və dəstəyin təmin edilməsinə yönəlmədi, eyni zamanda ölkələrə dəstək, tibbi və humanitar yardımla bağlı məlumat bazasından istifadə etməyə başlamış Ümumdünya Səhiyyə Təşkilatı üçün də faydalı oldu.

Hərəkata üzv olduğumuz müddətdə keçmiş Ermənistan-Azərbaycan münaqişəsi barədə beynəlxalq ictimaiyyətin geniş dairələrində məlumatlılıq daha da artıb, təşkilatın daxili prosedur və sənədlərində Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə davamlı olaraq dəstək göstərilib. Eyni zamanda Azərbaycan Qoşulmama Hərəkatının üzv dövlətlərinin hər biri ilə əməkdaşlıq münasibətlərini inkişaf etdirir, heç bir bloka qoşulmadan xarici siyasət həyata keçirir.

### Azərbaycanın təşəbbüsü ilə yaradılan şəbəkələr

Qoşulmama Hərəkatının 2018-ci il aprelin 5-də Bakıda "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusunda nazirlər konfransı keçirilib.

2019-cu il oktyabrın 25-də Qoşulmama Hərəkatı üzvlərinin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü reallaşıb. XVIII Zirvə Görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, həmçinin beynəlxalq təşkilatların rəhbərləri iştirak ediblər. Bu il iyunun 30-da təşkilatın Parlament Şəbəkəsinin Bakı Konfransı, iyulun 25-dən 29-dək isə QH-yə üzv ölkələrdən olan gənclərin sammiti keçirilib. Tədbirdə hərəkata üzv olan 60-dan çox ölkənin gəncləri iştirak edib.

Qeyd edək ki, Azərbaycanın sədrliyi dövründə ölkəmizin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi yaradılaraq onun ilk toplantısı keçirilib. Bununla yanaşı, hərəkatın Gənclər Şəbəkəsi qurulub. Gənclər Şəbəkəsinin formalaşdırılması bu təşkilatın mühüm təşəbbüslərindən biri kimi dəyərləndirilir.

Prezident İlham Əliyev də hərəkatın müxtəlif toplantılarında çıxışlarında təşkilatı yüksək qiymətləndirib. Dövlət başçısı qeyd edir ki, Qoşulmama Hərəkatı müxtəlif regionları əhatə edərək fərqli tarixi, siyasi və mədəni mənsubiyyətə malik 120 ölkəni birləşdirməklə, multilateralizmin həqiqi nümunəsi hesab edilir: "Suverenlik və ərazi bütövlüyünə hörmət, təcavüz aktlarından çəkinmə, başqalarının daxili işlərinə qarışmama kimi prinsipləri özündə ehtiva edən tarixi Bandunq prinsipləri Qoşulmama Hərəkatının təməlində dayanır. Bu prinsiplər müasir beynəlxalq münasibətlərdə aktual və vacib olaraq qalır. Əgər bütün ölkələr Bandunq prinsiplərinə riayət etsəydilər, onda biz dünyada müharibələr və münaqişələr görməzdik".

Prezident bildirir ki, Azərbaycan Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentariləri arasında əməkdaşlığın inkişafı ilə bağlı addımlar atır. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan beynəlxalq münasibətlərdəki qlobal çağırışların həlli istiqamətində hərəkatın rolunun daha da gücləndirilməsi, habelə ədalətin, beynəlxalq hüququn və Qoşulmama Hərəkatına üzv dövlətlərin legitim maraqlarının müdafiəsi istiqamətində səylərini əsirgəməyəcək.

### Sülhü və təhlükəsizliyi özündə ehtiva edən təşkilat

Qoşulmama Hərəkatının əsas məqsədi beynəlxalq hüququn norma və prinsipləri əsasında dünyada sülhün, təhlükəsizliyin qorunmasına və tərəqqiyə töhfə verməkdir. Eyni zamanda qlobal problemlərin həlli və müasir dövrün çağırışlarına cavab vermək baxımından da xüsusi əhəmiyyət kəsb edir.

Zaman göstərir ki, Qoşulmama Hərəkatının nüfuzu getdikcə daha da artır. Üzv dövlətlərin də etiraf etdiyi kimi, Azərbaycanın sədrliyi dövrü daha uğurlu olmaqla yanaşı, mühüm töhfələrlə nəticələnib. Təsisatda Azərbaycanın təşəbbüsü ilə yeni şəbəkələr yaranıb ki, bunlar da həmrəylik və qarşılıqlı dəstəyin gücləndirilməsi istiqamətində atılan addım kimi qiymətləndirilir.

Bir sözlə, Qoşulmama Hərəkatı təkcə ölkələr üçün maraqlarını müdafiə etmək və bir-birini dəstəkləmək platforması deyil, beynəlxalq arenada daha fəal rol oynamaq üçün platformadır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# *Beynəlxalq İtkinlər Günü:* Azərbaycanda aparılan axtarış prosesinin mərkəzində humanizm prinsipləri dayanır

Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası (Dövlət Komissiyası) Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan Respublikasındakı Nümayəndəliyi ilə birlikdə Beynəlxalq İtkinlər Günü münasibətilə təşkil edilmiş tədbirə evsahibliyi edib.





AZƏRTAC xəbər verir ki, tədbirin məqsədi itkin düşmüş şəxslərin identifikasiyası prosesinə olan humanitar yanaşmaya diqqəti cəlb etmək, o cümlədən dünyada və Azərbaycanda itkin düşmüş hesab edilən minlərlə insanın xatirəsini və itkindüşmənin onların ailələrinə yaşatdığı iztirab hissini yad etməkdir.

Dövlət Komissiyasının katibi, İşçi qrupunun rəhbəri İsmayıl Axundov açılış çıxışında qeyd edib ki, Azərbaycan Respublikası beynəlxalq humanitar hüquq normalarına sadiq qalaraq 1993-cü ildən BQXK ilə sıx əməkdaşlıq şəraitində işləyib. Komissiya katibi Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində, Birinci Qarabağ müharibəsində 3 min 890 nəfərin, Vətən müharibəsində 6 nəfərin itkin düşmüş şəxs kimi qeydiyyata alındığını bildirib.

Xüsusilə vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən itkin düşmüş şəxslərin sonrakı taleyinin müəyyən olunması üçün Dövlət Komissiyasının qarşısında mühüm vəzifələr müəyyən edilib.

İ.Axundov üçtərəfli Bəyanatdan sonra hazırda Rusiya sülhməramlı kontingentinin məsuliyyət zonasında olan ərazidən 138 şəxsə aid olduğu ehtimal edilən qarışıq meyit qalıqlarının təhvil verildiyini, işğaldan azad edilmiş Şuşa rayonu, Daşaltı kəndi, Xocavənd rayonu, Edilli kəndi, Xocalı rayonunun Fərrux və Daşbaşı kəndləri ərazisində müəyyən edilmiş kütləvi məzarlıqlarda aparılmış ekshumasiya zamanı, həmçinin işğaldan azad edilmiş digər ərazilərdə tikinti-quruculuq işləri aparılarkən 82 şəxsə aid olduğu ehtimal edilən meyit qalıqlarının müəyyən edilərək götürüldüyünü bildirib.

Həmçinin qeyd edib ki, Birinci Qarabağ müharibəsi zamanı şəhid olmuş və respublikanın 13 şəhər və rayonunun ərazisində yerləşən 21 qəbiristanlıqdakı naməlum şəhid məzarlarından 183 meyit qalığı ekshumasiya edilib, göstərilən üç istiqamət üzrə ümumilikdə 282 məhkəmə molekulyar-genetik ekspertizası təyin edilib və götürülmüş nümunələr aidiyyəti üzrə laboratoriyalara təqdim edilib.

Komissiya katibi hazırda BQXK-nın Azərbaycan Respublikasındakı Nümayəndəliyi ilə birlikdə işğaldan azad edilmiş ərazilərdə Birinci Qarabağ müharibəsində itkin düşmüş vətəndaşlarımıza aid altı yüksək coğrafi dəqiqlikli məzar yerində insan qalıqlarının ekshumasiyasına dair birgə pilot layihənin icrası üçün planlaşdırmanın aparıldığını da diqqətə çatdırıb, Birinci Qarabağ və Vətən müharibəsində hər iki tərəfdən itkin düşmüş şəxslərə aid məzar yerləri ilə bağlı məlumatların təqdim edilməsi üçün Ermənistanı konstruktiv əməkdaşlığa dəvət edib.

BQXK-nın Bakı Nümayəndəliyinin başçısı xanım Draqana Koiç çıxış edərək deyib: "Gəlin, bu gün və hər gün Azərbaycanda və eləcə də dünyanın digər yerlərində əzizlərinin taleyi barədə xəbərsiz olan minlərlə insanın iztirablarını xatırlayaq. Həmçinin unutmayaq ki, onların taleyinin aydınlaşdırılması hakimiyyət orqanlarının məsuliyyət dairəsinə aid olmaqla, ilk növbədə və ən vacibi, humanitar fəaliyyətdir və həmişə belə olmalıdır. BQXK isə öz növbəsində neytrallıq və qərəzsizlik prinsiplərinə sadiq qalaraq itkin düşmüş şəxslərin identifikasiyası prosesində aidiyyəti hakimiyyət orqanlarına dəstək göstərməyə davam etmək öhdəliyini bir daha ifadə edir".

D.Koiç həmçinin bildirib ki, BQXK son 30 il ərzində texniki təcrübəsini təklif etmək, bacarıqların artırılması istiqamətində tədbirlər görmək, dünyanın digər yerlərindən təcrübə və qabaqcıl təcrübələri bölüşməklə Azərbaycanda aidiyyəti hakimiyyət orqanlarının və dövlət qurumlarının itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması səylərinə öz dəstəyini göstərib. Qurum həmçinin itkin düşmüş şəxslərin ailə üzvlərinə psixososial dəstək göstərib, eləcə də ən həssas təbəqəyə aid olanlara maddi yardım edib. BQXK silahlı münaqişə və digər zorakılıq hallarının qurbanlarının humanitar müdafiəsi və onlara dəstək göstərilməsini təmin edən neytral, qərəzsiz və müstəqil təşkilatdır. Təşkilat regionda münaqişə ilə əlaqədar 1992-ci ildən fəaliyyət göstərir.

Tədbirdə həmçinin Azərbaycan Respublikası Prezidenti Administrasiyasının sektor müdiri Həbib Mikayıllı, Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının üzvü Novruz Aslanov, Səhiyyə Nazirliyinin Məhkəmə-tibbi ekspertiza və Patoloji Anatomiya birliyinin direktoru Ədalət Həsənov, Daxili İşlər Nazirliyinin Kriminalistik Tədqiqatlar İdarəsinin rəisi Elnur Nəsibov, Hərbi Prokurorluğun xüsusi istintaq şöbəsinin mühüm işlər üzrə böyük müstəntiqi Emil Ağayev və itkin ailələrinin üzvləri çıxış edərək itkin düşmüş şəxslərin sonrakı taleyinin müəyyən edilməsi, onlar barədə ailələrinə məlumatların çatdırılmasının vacib humanitar vəzifə olduğunu diqqətə çatdırıblar.

Tədbirdə itkin düşmüş şəxslərin ailələri, dövlət qurumlarının nümayəndələri, diplomatik missiyalar və beynəlxalq təşkilatların üzvləri, itkin düşmüş şəxslərin məsələləri üzərində işləyən mütəxəssislər, o cümlədən dini icma və qeyri-hökumət təşkilatlarının rəhbərləri daxil olmaqla, yüzdən çox qonaq iştirak edib.

Sonda itkin düşmüş şəxslərin humanitar nöqteyi-nəzərindən identifikasiyası mövzusunda müzakirələr və fikir mübadiləsi aparmaq, irəliləyişləri və çətinlikləri, o cümlədən gələcək imkanları vurğulamaq məqsədilə panel müzakirəsi və sual-cavab sessiyası keçirilib.

# Azərbaycan itkin düşənlərinə görə ən ağrılı problem yaşayan ölkələrdəndir

*Əvvəli 1-ci səh.*

Azərbaycan dünyada itkin düşmüşlərlə bağlı ən ağrılı problemlərlə üzləşən ölkələrdəndir. Birinci Qarabağ müharibəsi zamanı Ermənistanın təcavüzü və işğalçılıq siyasəti nəticəsində itkin düşmüş minlərlə azərbaycanlının taleyindən bu günə qədər də xəbər yoxdur.

Azərbaycan tərəfinin əldə etdiyi məlumatlar göstərir ki, bu siyahıda olan insanların əksəriyyəti erməni əsirliyində ya işgəncə, ya da xəstəlikdən həlak olub. Bu günə qədər siyahıda olanların bəzilərinin Ermənistanda və işğal olunan ərazilərdə ağır fiziki işlərdə qul kimi istifadə olunduğu haqqında faktlar mövcuddur.

### İnsanlar hələ də yaxınlarının geri qayıdacaqlarına ümid edirlər

İtkin düşənlərin ailələri daim böyük həsrət və iztirab içərisində öz əzizlərinin taleyi barədə məlumat almaq istəyirlər. Lakin erməni siyasəti müharibə qanunlarını, beynəlxalq hüququ tanımadı, barbarcasına hərəkət edərək bu insanların da taleyinə aydınlıq gətirmədilər.

Erməni vandalizminin qurbanı olmuş vətəndaşlarımızla bağlı həqiqətlərin üzə çıxması həm də minlərlə gözüyaşlı ata-ananın, bacı-qardaşın, oğul-qızın təskinlik tapması, gözlərinin yollardan çəkilməsi demək olardı. Vaxt keçsə də doğmalarının yolunu gözləyən minlərlə ailə hələ də ümidlərini üzməyiblər.

Sözsüz ki, hər bir itkin düşmüş şəxsin taleyi faciədir. İtkin düşmüşlərlə yanaşı, onların ailələri və yaxınları da bir faciə yaşayırlar. Hələ də ömrüboyu itkin sevdiyini gözləyərək saçları ağaran qızlar, əsirlikdə olan atasının həsrəti ilə böyüyüb bu gün özü ata olan, amma gözləri yollardan çəkilməyən övladlar var...

### 3890 nəfər itkinimiz var

Son məlumata görə, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Birinci Qarabağ müharibəsində 3890 nəfər Azərbaycan vətəndaşı itkin düşmüş şəxs kimi Dövlət Komissiyasında qeydiyyata alınıb. Onlardan 3171 nəfəri hərbçi, 719 nəfəri mülki şəxsdir. Mülki şəxslər içərisindən 71 nəfəri yetkinlik yaşına çatmamış uşaq, 267 nəfəri qadın, 326 nəfəri yaşlı insanlar olub.

İtkin düşmüş şəxslərin ümumi sayından 872 nəfər, o cümlədən 29 uşaq, 98 qadın və 112 qoca əsir-girov götürülmüş və ya işğal edilmiş ərazilərdə qalmışdı. Sonradan azad olunmuş əsir və girovlar həmin şəxsləri sağ gördüklərini təsdiq ediblər.

### Xocalıda əsir götürülən 36 uşaqdan, 65 qadından xəbər yoxdur

Ermənistanın əsirliyindən azad edilmiş hərbçilərin və hadisə şahidi olmuş mülki vətəndaşların ifadələrinə və sübutlara baxmayaraq, Ermənistan Respublikası bu şəxslərin əsir-girov götürülməsi və saxlanması faktını inkar edir. Beynəlxalq humanitar hüquq normalarının Ermənistan tərəfindən pozulmasının ən qabarıq nümunəsi Xocalı soyqırımıdır. 1992-ci il fevralın 26-da Xocalı şəhəri Ermənistan tərəfindən tam mühasirəyə alınaraq yerləyeksan edilib, dinc əhali pusquya salınaraq onlara divan tutulub. 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca vəhşicəsinə öldürülüb. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki, 130 uşaq valideynlərindən birini itirib. Aralarında 76 uşağın olduğu 487 nəfər yaralanıb. Xocalı soyqırımı zamanı yüzlərlə azərbaycanlı əsir və girov götürülüb. Onlardan 196 nəfərin, o cümlədən 36 nəfər uşaq, 65 nəfər qadının taleyi naməlum olaraq qalmaqdadır.

Erməni quldurları hətta beynəlxalq qurumlardan da çəkinməyiblər. Məsələn, Beynəlxalq Qırmızı Xaç Komitəsində (BQXK) əsir və girov kimi qeydiyyatda olan soydaşlarımız belə sonradan ya öldürülmüş, ya da yoxa çıxarılmışdır. 1998-ci və 2001-ci illərdə Azərbaycana verilən rəsmi məlumatlara əsasən, hərbi əməliyyatların gedişində Ermənistan tərəfindən əsir-girov götürülmüş 54 Azərbaycan vətəndaşına Ermənistan Respublikasında və keçmiş işğal edilmiş ərazilərimizdə BQXK tərəfindən saxlanma yerlərində baş çəkilmiş və onlar bu qurumun rəsmi qeydiyyatında olmuşdular. Ancaq Ermənistan həmin 54 nəfərdən 17-sini qətlə yetirmişdir. Digər 37 nəfərin taleyi isə bu günə qədər naməlum olaraq qalır.

### Öz yaxınlarını axtaranlar aldadılaraq girov götürülmüş və ya öldürülmüşdür

1993-cü ilin aprel ayında Kəlbəcər rayonunun işğalı zamanı Azərbaycanın aidiyyəti dövlət qurumlarının radio əks-kəşfiyyat xidməti tərəfindən Ermənistanın Azərbaycan xalqına qarşı belə hərbi cinayətlərindən biri ifşa edilib. Əldə edilmiş materialda Ermənistanın Basarkeçər rayonundakı qərargah radiostansiyasından Kəlbəcər döyüş bölgəsindəki bütün radiostansiyalara təcili əmr verilib ki, əsir və girov götürülmüş Azərbaycan vətəndaşları, o cümlədən qocalar, qadınlar və uşaqlar təcili məhv edilib, basdırılsın. Məqsəd isə törətdikləri cinayətlərin izlərinin həmin vaxt döyüş bölgəsinə gələn beynəlxalq nümayəndə heyətindən gizlətmək olub.

Bundan əlavə, əsir-girovların hədə-qorxu və şantaj vasitəsi ilə erməni xüsusi xidmət orqanları tərəfindən məcburi əməkdaşlığa cəlb edilməsi və Azərbaycan Respublikasına qarşı terror-təxribat əməlləri törətməyə təhriki faktları da mövcuddur.

Digər bir faktda isə qeyd edilir ki, 31 dekabr 1992-ci ildə Qazax rayonunun Ermənistanla sərhəd ərazisində itkin düşmüş İsayev Əsgər İsmayıl oğlunun axtarışı ilə məşğul olmuş qardaşı İsayev Cahangir İsmayıl oğlu və bacısının həyat yoldaşı Məmmədov Məmməd Qərib oğlu 7 noyabr 1993-cü il tarixdə Ermənistanın Gürcüstanla sərhəd ərazisinə gedərək orada ermənilərlə danışığa girmiş, sonda Əsgər İsayevlə görüşdürəcəkləri və onu azad edəcəkləri adı altında aldadılaraq Ermənistana aparılmışlar. Hazırda onların hər üçünün taleyi naməlumdur.

Başqa bir fakt: 1993-cü ilin fevral ayında Azərbaycanın Ağdərə rayonu uğrunda gedən döyüşlərdə itkin düşmüş Azərbaycan Ordusunun əsgəri Quliyev Xaqani Nurəddin oğlunun axtarışı ilə məşğul olmuş doğmaları öz təşəbbüsləri ilə Rusiyada yaşayan ermənilərlə əlaqə yaradıb. Onları Xaqani Quliyevin sağ olduğuna inandırmış ermənilər 25 min ABŞ dolları müqabilində onu azad edəcəklərini bildiriblər. Yaxın qohumlarının köməyi ilə həmin vəsaiti toplamış Xaqani Quliyevin qardaşı Mahir Quliyev 1996-cı ilin yayında Rusiyaya gedib. Lakin ermənilər göstərilən məbləği gətirmiş Mahir Quliyevin özünü də orada qətlə yetirərək pulu götürüb qaçıblar.

### 1713 erməni hərbçinin meyiti təhvil verilib

10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdan sonra həyata keçirilmiş birgə tədbirlər nəticəsində 1713 Ermənistan hərbçisinin meyiti tapılaraq ərazidən götürülüb və qarşı tərəfə təhvil verilib. Beynəlxalq Qızıl Xaç Komitəsinin məlumatına əsasən, Birinci Qarabağ müharibəsi zamanı 776 nəfər, İkinci Qarabağ müharibəsi zamanı isə 345 erməni əsilli şəxs itkin düşmüş hesab edilir. Birinci Qarabağ müharibəsi dövründə 1480 nəfər azərbaycanlı əsir-girovluqdan azad edilib, qarşı tərəfə isə 509 nəfər təhvil verilib. Azərbaycan Respublikası beynəlxalq humanitar hüquq normalarından irəli gələn öhdəliklərinə sadiq qalaraq əsir düşmüş Ermənistan hərbçilərini və döyüş bölgəsindən təxliyə edilmiş mülki şəxslərin saxlanma şəraitini, onlarla ləyaqətli davranışı, qida, su təminatını və yaralıların müalicə hüquqlarını təmin edib. Dövlət Komissiyası əsir düşmüş Ermənistan hərbçiləri və saxlanılan şəxslər barədə məlumatları müntəzəm qaydada BQXK-ya təqdim edib, qurum əməkdaşlarının onlara baş çəkmələrinə hərtərəfli şərait yaradıb. Həmçinin əsirlərin və saxlanılan şəxslərin öz yaxınlarına məktub yazması, videoismarıclar göndərməsi, o cümlədən telefon əlaqəsi saxlamaları təmin edilib.

### 6 hərbçimizin taleyi hələ də məlum deyil

Vətən müharibəsi başa çatdıqdan sonra Azərbaycan Respublikasının aidiyyəti qurumları tərəfindən təqdim edilmiş siyahıya əsasən, 300-ə yaxın Azərbaycan hərbçisi itkin düşmüş hesab edilirdi. Üçtərəfli Bəyanata uyğun olaraq Rusiya sülhməramlı kontingentinin və BQXK-nın yaxından iştirakı ilə həyata keçirilmiş təxirəsalınmaz axtarış tədbirləri nəticəsində itkin düşmüş hərbi qulluqçularımızın əksəriyyətinin nəşi işğaldan azad edilmiş ərazilərimizdən götürülüb və eyniləşdirilərək ailələrinə təhvil verilib. Təəssüf ki, Vətən müharibəsində iştirak etmiş 6 hərbçimizin axtarışı ilə bağlı zəruri tədbirlərin keçirilməsinə baxmayaraq, onların sonrakı taleyinin müəyyən edilməsi mümkün olmayıb və onlar Vətən müharibəsində itkin düşmüş şəxs kimi Dövlət Komissiyasında qeydiyyata alınıb. Onların taleyi bu vaxtadək məlum deyil.

2021-ci ilin fevral - 2022-ci ilin aprel ayına qədər işğaldan azad edilmiş Şuşa rayonu, Daşaltı kəndi, Xocavənd rayonu, Edilli kəndi, Xocalı rayonunun Fərrux və Daşbaşı kəndləri ərazisində müəyyən edilmiş kütləvi məzarlıqlarda aparılmış ekshumasiya zamanı, həmçinin işğaldan azad edilmiş Ağdam, Şuşa, Göygöl, Tərtər, Füzuli, Kəlbəcər və Zəngilan rayonları ərazilərində tikinti-quruculuq işləri aparılarkən 82 şəxsə aid olduğu ehtimal edilən meyit qalıqları müəyyən edilərək götürülüb.

### Əsir və girovlara ağlasığmaz işgəncələr verilib

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı yaranmış humanitar böhranın nəticələrinin aradan qaldırılması məqsədilə 1993-cü ildə yaradılıb. Dövlət Komissiyası yarandığı vaxtdan etibarən Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq humanitar hüquq normalarına uyğun olaraq Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) ilə sıx əməkdaşlıq edir.

Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasında "İtkin düşmüş şəxslər" ilə bağlı iki ildən bir qətnamə qəbul edilir. Ölkəmiz eyni zamanda BMT-nin Qadınların Statusu üzrə Komissiyasında qəbul edilən "Silahlı münaqişələr zamanı girov götürülmüş qadınlar və uşaqların azad edilməsi haqqında" adlı qətnamənin əsas təşəbbüskarıdır.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü zamanı Ermənistan tərəfindən bir çox beynəlxalq hüquq normaları, o cümlədən beynəlxalq humanitar hüququn tələbləri kobud şəkildə pozulub. Müharibə qaydalarına zidd olaraq, mülki əhali qorunmayıb, əksinə, onlar girov götürülmüş və bir çox hallarda öldürülüb. Bir çox hallarda əsir və girovlara ağlasığmaz işgəncələr verildikdən sonra onlar öldürülüb və işgəncələrin izlərinin itirilməsi məqsədilə onların meyitləri belə Azərbaycan tərəfinə təqdim edilməyib.

Hazırkı şəraitdə itkinlərin taleyinin müəyyən edilməsinə mane olan əsas faktlar isə Ermənistanın dəfn yerləri barədə məlumatları təqdim etməməsi və işğaldan azad edilmiş ərazilərdə çoxsaylı minaların olmasıdır. Yüksəksəviyyəli görüşlərdə və müxtəlif platformalarda dəfələrlə qaldırılmasına və müzakirə edilməsinə baxmayaraq, Ermənistan tərəfi Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərə aid məzar yerləri barədə məlumatları təqdim etmir.

Əsir və girov götürülən şəxslərin əksəriyyətinin Ermənistanın birbaşa nəzarəti altında insan alverinin qurbanına çevrildiyi, onların bəzilərinin bədən orqanlarının transplantasiya edilərək satıldığı, şəxsiyyətləri və ləyaqətlərinin alçaldıldığı artıq sübuta yetirilib. Əfsuslar olsun ki, müharibələrin acı nəticələrindən insanlarımızı qorumalı olan beynəlxalq humanitar hüquq hamımıza, bütün dünya dövlətlərinə, səlahiyyətli beynəlxalq təşkilatlara məxsus olsa da, bu insanlığa yaraşmayan praktikaya qəsdən göz yumur və reaksiya vermir.

*Elşən YƏHYAYEV,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

# SOCAR-ın yeni hədəfləri

## Xərcləri optimallaşdırmaq, gəlirləri artırmaq




**Məlum olduğu kimi, 2019-cu ilin sonunda SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) təsisçiliyi ilə "SOCAR Downstream Management" şirkəti yaradılmışdır. Bu, SOCAR-ın neft-qaz emalı və neft-kimya müəssisələrinin yenidən qurulması, modernizasiyası, həmin müəssisələrin emal, istehsal, əməliyyat, keyfiyyətə nəzarət, əməyin təhlükəsizliyi, təmir-baxım işlərinin koordinasiyası, xammal və aralıq məhsulun ötürülməsi, digər texniki, texnoloji və kommersiya əməliyyatlarının səmərəli həyata keçirilməsi, habelə maliyyə resurslarının daha rentabelli idarə edilməsi məqsədinə yönəldilmiş bir tədbirdir.**

İki il əvvəl isə Heydər Əliyev adına Neft Emalı Zavodu (NEZ) "SOCAR Downstream Management" şirkətinin idarəetməsinə verildi. Beləliklə, burada innovativ və beynəlxalq təcrübələrin tətbiqi, idarəetmə və əməliyyatların optimallaşdırılması istiqamətində mühüm tədbirlərin həyata keçirilməsinə başlandı. Bu tədbirlərə həmçinin biznes proseslərini, SƏTƏMM (Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi), aktivlərin idarə edilməsi, istehsalatın düzgün proqnozlaşdırılması və planlaşdırılması istiqamətində "Əməliyyat Mükəmməlliyi" proqramlarının icrası da daxildir.

Hazırda SOCAR-ın neft-qaz emalı və neft-kimya sənayesi üzrə fəaliyyət göstərən digər emal müəssisələrinin - "Azərikimya" İB, Karbamid zavodu, Metanol zavodu, "SOCAR Polymer", Qaz Emalı Zavodunun və s. qanunvericilik və nizamnamələr nəzərə alınmaqla "SOCAR Downstream Management" şirkətinin idarəetməsinə verilməsi prosesinə başlanıb. Bu da beynəlxalq təcrübəyə uyğun olaraq operativ idarəetmə mexanizmlərinin, vahid texnoloji prosesin yaradılmasının, SOCAR-ın emal zəncirinin dayanıqlı fəaliyyətinin təmin olunmasının, hazır məhsulun rəqabət qabiliyyətinin və SƏTƏMM normativlərinə daha da ciddi riayət olunmasının gücləndirilməsi məqsədini daşıyır.

Qeyd edək ki, sözügedən proses şaquli inteqrasiya prinsipi əsasında həyata keçirilir. Yəni SOCAR-ın neft emalı və neft kimya müəssisələri dəyər zənciri üzrə bir-biri ilə inteqrasiyalı fəaliyyət göstərir. Bu da güclü sinerji yaradılaraq xərclərin optimallaşdırılmasına və gəlirlərin artırılmasına hədəflənir. Beləliklə, hazırda Heydər Əliyev adına NEZ, "Azərikimya" İB və "SOCAR Polymer" müəssisələri vahid dəyər zənciri üzrə bir-birini xammalla təmin edir. Bu müəssisələr arasında şaquli inteqrasiya əsasında güclü sinerji yaradılaraq istehsalat prosesində səmərəliliyin artırılması, fasiləsiz istehsalatın təmin edilməsi hədəflənir. Bütün bunlar SOCAR-ın xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasına xidmət edir.

Xatırladaq ki, 2019-cu ilin sonlarında SOCAR-ın Türkiyədəki törəmə müəssisələri - "Petkim", "STAR" NEZ, "SOCAR Petrol Ticarət" və "SOCAR Depolama" arasında şaquli inteqrasiyanın təmin edilməsi və güclü sinerjinin yaradılması məqsədilə "Neft-emalı və Neft-kimya Biznes Bölməsi" yaradılmışdır. COVID-19 ortaya bir sıra çətinliklər çıxararaq, qlobal miqyasda təchizat zəncirində fasilələr baş versə belə, "Petkim"in və "STAR" NEZ-in inteqrasiyalı fəaliyyəti sayəsində yaranan güclü sinerji ilə hər iki müəssisə fasiləsiz istehsal prosesini davam etdirib və rəqabətqabiliyyətliliyini artırıb.

İnteqrasiyalı fəaliyyət öz bəhrəsini getdikcə daha çox göstərir. Belə ki, indi "Petkim" "STAR" NEZ-dən daha çox və yüksəkkeyfiyyətli yüngül nafta məhsulu alır. Bundan əvvəl isə "Petkim" bu məhsulu xaricdən idxal edirdi. Bütün bunlar nəqliyyat və idxal xərclərini aradan qaldırıb, daha keyfiyyətli və stabil yüngül nafta istifadəsi sayəsində gəlirlərin artırılmasına imkan yaradıb.

Sözügedən bu iki müəssisənin inteqrasiyalı fəaliyyəti nəticəsində eyni zamanda istehsal prosesinin daha səmərəli idarə olunmasına başlanıb. Belə ki, xammal idxal edilən zaman nəqliyyat və digər səbəblərdən yaranan gecikmələr istehsal proseslərinə birbaşa mənfi təsir göstərirdi. Bu isə məhsulun maya dəyərinin artması və bazarda rəqabət qabiliyyətinin azalması ilə nəticələnirdi. Həmin hal pandemiya dövründə təchizat zəncirlərində yaranan fasilələrdə özünü daha bariz şəkildə göstərdi.

"Petkim" və "STAR" NEZ-in inteqrasiyalı fəaliyyəti nəticəsində müxtəlif kateqoriyalarda, o cümlədən istehsalat, satınalma, ticarət, texniki xidmət, maliyyə, informasiya texnologiyaları və korporativ xidmətlər sahəsində yaradılan əlavə maliyyə dəyəri 2019-2021-ci illər üzrə təqribən 100 milyon dollar təşkil edib.

Göründüyü kimi, emal və neft-kimya müəssisələrinin vahid mərkəzdən idarə olunması idarəetmədə səmərəliliyi artırmaqla yanaşı, layihələrin daha sürətli icrasına, əməyin təhlükəsizliyinin gücləndirilməsinə, rəqəmsal və innovativ texnologiyaların tətbiqinə, insan kapitalının yüksəlməsinə və əməkdaşların karyera inkişafının təmin edilməsinə zəmin yaradır.

Beləliklə, SOCAR-ın ölkə daxilində fəaliyyət göstərən neft-qaz emalı və neft-kimya müəssisələrinin inteqrasiyalı fəaliyyətinin əhəmiyyətli əlavə maliyyə dəyəri yaradacağına şübhə yoxdur.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Daha 151 nəfər üçün özünüməşğulluq proqramı üzrə kiçik bizneslər yaradıldı



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən daha 151 şəhid ailəsi üzvü və müharibə veteranı özünüməşğulluq proqramı əsasında aktivlərlə təmin edilib.**

Biznes planlarına uyğun verilmiş aktivlər hesabına onlar müxtəlif iqtisadi fəaliyyət növləri üzrə kiçik bizneslərini yaradıblar.

Özünüməşğulluq proqramına cəlb edilən işsiz və işaxtaran şəxslər üçün əvvəlcə kiçik biznesin təşkili üzrə bilik və bacarıqlara malik olmaları məqsədilə təlimlər təşkil edilib. Təlimlərdən sonra onlar mal və materiallar formasında aktivlərlə təmin olunurlar.

## Təlim iştirakçılarına sertifikatlar təqdim olunub

**Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə icra etdiyi "Cənubi Qafqazda kəndlərin davamlı inkişafı üçün təbii sərvətlərin idarə edilməsi və ekosistem xidmətlərinin qorunması" (ECOserve) proqramı çərçivəsində Aqrar Xidmətlər Agentliyinin Aqrar Təlim Mərkəzi ilə əməkdaşlığa başlayıb.**

Əməkdaşlığın əsas məqsədi aqrar məsləhətçilərin və fermerlərin bilik və bacarıqlarının artırılması məqsədilə təlimlərin təşkili edilməsi və fermerlərin sahə fəaliyyətlərində məsləhət xidmətlərinin göstərilməsidir.

Bu məqsədlə layihənin fəaliyyət planına uyğun olaraq, Kürdəmir, Ucar, Zərdab, Göyçay və Sabirabad rayonlarında "Zərərvericilərə qarşı inteqrir mübarizə tədbirlərinin aparılması" və "Qabaqcıl aqrar praktikalar" mövzularında aqrar məsləhətçilər və fermerlər üçün ümumilikdə 15 təlim keçirilib. Təlim iştirakçılarına əsasən buğda, arpa və pambıq bitkilərinin xəstəlik və zərərvericiləri və onlara qarşı mübarizə tədbirlərinin aparılması, torpağın becərilmə üsulları və uyğun texnikalardan istifadə, torpaq analizi və onun əsasında gübrə normalarının təyin edilməsi, növbəli əkin və aqroekoloji tədbirlər mövzularında ətraflı məlumatlar verilib, fermerləri maraqlandıran suallar cavablandırılıb və informasiya materialları paylanılıb.

Tədbirin yekununda Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin nümayəndələri və Aqrar Xidmətlər Agentliyinin Aqrar Təlim Mərkəzinin əməkdaşlarının iştirakı ilə təlimləri uğurla başa vuran iştirakçılara sertifikatlar təqdim edilib.

## Türkiyədə keçirilən "TEKNOFEST-2022 Qara Dəniz"in final mərhələsi start götürüb

**Dünyanın ən böyük Aerokosmik və Texnologiya Festivalı "TEKNOFEST" bu il Türkiyənin Qara dəniz bölgəsində keçirilib. Festivalın builki final mərhələsi qardaş ölkənin Samsun vilayətində təşkil olunub.**

Festivalın məhz Samsunda keçirilməsinin əsas səbəbi Türkiyənin zəfərlə nəticələnən Qurtuluş müharibəsinin təməllərinin qardaş xalqın Ulu Öndəri Mustafa Kamal Atatürk tərəfindən məhz bu şəhərdə atılmasıdır.

AZƏRTAC xəbər verir ki, 30 Avqust - Türkiyənin Zəfər bayramı günü başlayan final mərhələsi sentyabrın 4-dək davam edəcək. Bu, altı gün ərzində texnologiya, elm, aviasiya-uçuş şouları, sərgilər, toplantılar, seminarlar, mükafatlandırma mərasimləri, səhnə şouları və konsert proqramlarının təşkili nəzərdə tutulub. Final mərhələsində bu kimi bir çox tədbirlərlə yanaşı, statistik sərgi sahəsində "Bayraktar Qızıl Alam", "Hürjet", "Akıncı TİHA", "F-16", "Bayraktar TB2", "Bell 429", "Melle" hərbi təyyarəsi kimi bir çox hava vasitəsi ziyarətçilərə yaxından göstəriləcək. Bundan əlavə, festivalın final mərhələsində Türkiyə Hərbi Hava Qüvvələrinin tək təyyarəli akrobatika nümayişi "Solo Türk" və "Türk Ulduzları"nın hava şou proqramları nümayiş etdiriləcək.

Türkiyənin qabaqcıl dövlət və özəl sektor şirkətlərinin iştirakı ilə son zamanlar inkişaf etdirilən milli texnologiya məhsullarının sərgiləndiyi "TEKNOFEST Qara Dəniz"də ölkəmiz də geniş heyətlə təmsil olunur, onlar arasında yüksək nəticə göstərənlər də var.

Belə ki, Xəzər Universitetinin tələbələri festivalda beynəlxalq pilotsuz uçuş aparatları (PUA) üzrə "Sabit qanad" və "Dönən qanad" kateqoriyasında iki, "İti qovan" və "İnvictus" komandaları ilə final mərhələsinə keçiblər.

Finala vəsiqə qazanan komandalarımızdan biri də İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) Peşə Təhsil Mərkəzinin komandasıdır. "ZƏFƏR" adlı bu komandanın üzvləri tərəfindən hazırlanmış "Buta" elektrik avtomobili festival iştirakçılarına nümayiş olunacaq.

Festivalda daha bir mükafata layiq görülən "DroneX" komandasının üzvlərinin əksəriyyəti Türkiyədə təhsil alan gənclərimizdir. "DroneX" 98 komandanın rəqabət apardığı final mərhələsində yüksək nəticə göstərərək, ümumi hesabda üçüncü yerə yüksəlib.

Qeyd edək ki, avqustun 30-dan 4-dək davam edəcək "TEKNOFEST" çərçivəsində Türkiyədə yaşayan həmvətənlərimizə dövlət xidmətlərinin çatdırılması məqsədilə Azərbaycanın səyyar "ASAN xidmət" avtobusu fəaliyyət göstərəcək. Ölkə xaricində ilk dəfə gerçəkləşəcək səyyar "ASAN xidmət" Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təşkilatçılığı, Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi və "ABB" ASC-nin maliyyə tərəfdaşlığı ilə təşkil olunur.

Xüsusi avadanlıqlarla təchiz olunmuş səyyar avtobus vasitəsilə vətəndaşlara bir çox xidmət göstəriləcək.

Xatırladaq ki, 2018-ci ildən başlayaraq hər il keçirilən festival bu il ilk dəfə Türkiyə hüdudlarından kənarda - Azərbaycanda baş tutub.

# Azərbaycan mühüm tranzit ölkə kimi statusunu möhkəmləndirir




**Məlum olduğu kimi, son dövrlər dünyanın güc mərkəzləri arasında siyasi münasibətlər son dərəcə kəskinləşib. Siyasət aləmində baş verən qarşıdurmalar iqtisadi münasibətlərə də təsir göstərib. Bunun nəticəsində dünyada enerji daşıyıcılarının və ərzağın qiyməti bahalaşıb. İstənilən qiymət artımının isə dünya iqtisadiyyatına, eləcə də insanların sosial həyatına mənfi təsir göstərməsi təbiidir.**

**Azərbaycan Avropa İttifaqı ilə yeni müstəvidə iqtisadi münasibətlər qurur. Azərbaycan həmçinin Avropa üçün mühüm tranzit ölkəsi kimi də önəmli rol almağa başlayıb. "Şərq-Qərb", "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat dəhlizlərində açar ölkə Azərbaycandır. Ölkəmizin dünya ticarətinin aparılmasında önəmli rol oynaması bizə həm iqtisadi, həm də siyasi dividendlər qazandırır.**

Bu təsiri alovlandıran əsas səbəb Rusiya-Ukrayna münaqişəsi üzündən taxılla təminatda ciddi problemlərin yaranmasıdır. Türkiyənin vasitəçiliyi ilə problem qismən həll olunsa da, bu işin qarşıdakı aylarda necə davam edəcəyi bəlli deyil. Bundan əlavə, iki slavyan ölkəsi arasındakı gərginlik Qərblə Rusiya arasında ciddi qarşıdurma yaratdığına görə, Avropa qaz böhranı ilə üzləşib, qitədə iqtisadi fəallıq aşağı düşüb. Qərbin tətbiq etdiyi sanksiyalar qaz və neft qiymətlərinin bahalaşmasına səbəb olduğu üçün həlelik Rusiyanın maliyyə vəziyyətinə elə də ciddi mənfi təsir göstərmir. Ancaq bu ölkədə başa düşürlər ki, vəziyyət uzun müddət belə davam edə bilməz. Bu səbəbdən də Rusiya qarşılaşacağı təhlükələrdən yayınmaq üçün yeni bazarların və marşrutların əldə edilməsinə səy göstərir. Rusiyanın Şanxay Əməkdaşlıq Təşkilatının fəaliyyətinin canlandırılması, həmçinin Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun inşasının sürətləndirilməsinə cəhd göstərməsi də bununla bağlıdır.

İranın Dəmir Yolu Tikintisi Dövlət Şirkətinin direktor müavini Abbas Xətibi İRİB televiziyasına müsahibəsində bildirib ki, Rusiya Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu inşasının tezliklə başa çatdırılmasında maraqlıdır. Bu səbəbdən həmin ölkənin mütəxəssislərindən ibarət nümayəndə heyəti İrana səfər edib.

Artıq yolun Qəzvin-Rəşt hissəsi istismara verilib, Rəşt-Astara hissəsində isə işlər davam edir. Rusiya bu yolun elektrik xətlərinin çəkilməsi ilə yanaşı, onun tikintisinin sürətləndirilməsi üçün yardım edəcək. Abbas Xətibi həmçinin bildirib ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinə daxil olan bu yolla yüklər Rusiyadan Fars körfəzi ölkələrinə, Hindistana və digər Cənub-Şərqi Asiya ölkələrinə daşınacaq.

Qeyd edək ki, İrana tətbiq olunan iqtisadi sanksiyalar yolun tikintisinə maliyyə vəsaitinin ayrılmasına maneələr yaradır. Rusiya 160 kilometrlik Rəşt-Astara dəmir yolunun tez bir zamanda istifadəyə verilməsinə çalışır ki, Asiya ölkələri ilə ticarət əlaqələrini genişləndirsin. Ölkəmizin ərazisindən keçəcək bu yol Rusiya, Azərbaycan və İranın dəmir yolları sistemlərini birləşdirəcək. Azərbaycan tranzit ölkə olaraq üzərinə götürdüyü öhdəlikləri yerinə yetirib. Yol hazır olduqdan sonra hər 3 dövlətin ticarət və tranzit əlaqələri artacaq ki, bu da büdcə gəlirlərinə valyuta axınını təmin edəcək.

Məlum sanksiyalar səbəbindən Rusiya həm də Asiya və Afrika bazarlarına daxil olmağa çalışır. Hazırda "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi şimal qonşumuzun əsas ümid yeridir. Onu da qeyd edək ki, Rusiyanın Zəngəzur dəhlizinə maraq göstərməsi də alternativ marşrut əldə etmək istəyi ilə bağlıdır. Zəngəzur dəhlizinin fəaliyyəti Rusiya üçün yeni bir nəfəsliyin açılması deməkdir.

"Şimal-Cənub" dəhlizinin fəaliyyətə başlaması Çinin də marağındadır. Bu ölkə də ABŞ-la yaranan gərginlikdən, ola biləcək sanksiyalardan yayınmaq üçün yeni marşruta maraq göstərir. Ümumiyyətlə, Çin dünyanın ən böyük istehsalçısı kimi bütün istiqamətlərdə yeni ixrac marşrutlarının fəaliyyətə başlamasına dəstək verir. Bu ölkənin təşəbbüsü olan "Bir kəmər, bir yol" layihəsinin məqsədi də dünyaya daha çox məhsul ixrac etməkdir.

Beynəlxalq aləmdə baş verən bütün bu yeni iqtisadi münasibətlər isə ölkəmizin xeyrinədir. Belə ki, Azərbaycan Avropa İttifaqı ilə yeni müstəvidə iqtisadi münasibətlər qurur. Azərbaycan həmçinin Avropa üçün mühüm tranzit ölkəsi kimi də önəmli rol almağa başlayıb. "Şərq-Qərb", "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat dəhlizlərində açar ölkə Azərbaycandır. Ölkəmizin dünya ticarətinin aparılmasında önəmli rol oynaması bizə həm iqtisadi, həm də siyasi dividendlər qazandırır. Beləliklə, Azərbaycan dünyada mühüm əhəmiyyət daşıyan tranzit ölkəsi kimi yeni status qazanır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Paytaxtın əsas yollarının təmiri davam edir

**Vətəndaşların rahat gediş-gəlişinin təmin olunması məqsədilə 2022-ci ilin "İnvestisiya Proqramı"na uyğun olaraq, Bakı şəhəri Binəqədi rayonu üzrə ümumi uzunluğu 13,06 km olan küçə və yolun təmiri işləri aparılır.**



Bu istiqamətdə rayonun M.Ə.Rəsulzadə qəsəbəsi üzrə "Baksol" yolu adlanan avtomobil yolunda təmir işləri start verilib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən ümumi uzunluğu 3,21 km olan yolda aparılan işlər tərtib olunmuş qrafikə uyğun və texnoloji ardıcıllıqla həyata keçirilir. Təmir işləri çərçivəsində yolboyu köhnə asfalt beton örtüyünün frezlənməsi, zəruri yerlərdə əsasın deformasiyaya uğramış hissələrinin qazılaraq kənarlaşdırılması, əks-dolğu və yeni asfalt örtüyünün döşənməsi işləri görüləcək.

Layihənin sonuncu mərhələsində avtonəqliyyat vasitələrinin normal hərəkətinin təşkili üçün yolcizgi və yolgöstərici xətlər, həmçinin piyada zolaqları çəkilməklə müasir yol infrastrukturu yaradılıb vətəndaşların istifadəsinə veriləcək.

Qeyd edək ki, agentlik tərəfindən 2021-ci ildə Binəqədi rayonu üzrə 15,4 km uzunluğa malik küçə təmir edilib.






# Gənclik






● Qarabağ Azərbaycandır!



# Qalib Azərbaycan gəncliyi

*Əvvəli 1-ci səh.*

İdmanın sülhməramlı, humanist dəyərləri müxtəlif ölkələrin mötəbər yarışlarında milyonlarla insanlar arasında ən etibarlı körpü yaradır. İdman həmçinin cəmiyyətin vahid milli ideya ətrafında birləşməsinə və gənclərdə vətənpərvərlik hisslərinin formalaşmasına böyük təkan verir. Beynəlxalq idman yarışlarında qazanılan qələbələrimiz üzərində Azərbaycan bayrağı şərəflə dalğalanır.

Azərbaycanın 281 idmançı ilə təmsil olunduğu V İslam Həmrəyliyi Oyunları bu günlərdə uğurla başa çatdı və islam mədəniyyətinin inkişafı tarixinə xoş bir hadisə kimi yazıldı. Əslində, 2021-ci ildə keçirilməli olsa da, qlobal pandemiya səbəbindən bir il təxirə salınmış İslamiadada 54 ölkədən 4 mindən çox atlet idmanın 24 növü üzrə 483 dəst medal uğrunda mübarizə apardı.

2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi etmiş Azərbaycanın ardınca bu mühüm idman tədbirinin Türkiyədə - qardaş ölkənin Konya şəhərində keçirilməsi bizim üçün özünəməxsus simvolik məna daşıyırdı. Qədim tarixə, özünəməxsus ənənələrə malik Bakı da, Konya da islam mədəniyyəti tarixində əhəmiyyətli rol oynayan şəhərlərdir. Son onilliklərdə Bakı və ümumilikdə Azərbaycan bütün dünyada mədəniyyətlər arasında dialoq məkanı kimi tanınır. 2015-ci ildə paytaxtımızın evsahibliyi etdiyi I Avropa Oyunlarının ardınca Bakıda İslam Həmrəyliyi Oyunlarının təşkili Qərb və Şərq mədəniyyətlərinin təmasına, müasir dünyamızda islami dəyərlərə qarşı hücumların qarşısının alınmasına, islamın sülh, həmrəylik, insana sevgi, humanizm və ədalət dini kimi təqdim olunması məramına, islam ölkələrinin mədəniyyət işığında bir araya gəlməsi məqsədinə xidmət edirdi. Azərbaycan IV İslam Həmrəyliyi Oyunlarına uğurla evsahibliyi edərək öz ali niyyətinə çatdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi qətiyyəti, təşəbbüskarlığı, ölkəmizin Birinci vitse-prezidenti və tədbirin Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın fəaliyyəti sayəsində 2017-ci ildə keçirilən IV İslam Həmrəyliyi Oyunları bütün dünyaya nümayiş etdirdi ki, islam aləmi bir olmağı bacarır, bu, gücümüzü daha da artırır və ümumilikdə bəşəriyyət üçün böyük faydalar verir.

Qardaş Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarının da niyyəti bunun davamıdır. Qədim tarixi olan Konya şəhəri islam sivilizasiyasının mühüm mərkəzlərindən sayılır. Bu şəhər də Bakı kimi müxtəlif mədəniyyətlərin bir araya gəldiyi, qarşılıqlı tolerantlıq, hörmət və hüzur içində əsrlərdir mövcud olduğu harmonik ruha sahib unikal bir məkandır.

## Həmrəyliyin səsi

Azərbaycan idmançıları V İslam Həmrəyliyi Oyunlarında idmanın atıcılıq, atletika, basketbol 3x3 (qadınlar və kişilər), cüdo, futbol, güləş, gimnastika, aerobika, bədii gimnastika, həndbol, karate, kikboksinq, qılıncoynatma, oxatma, para-oxatma, para-atletika, para-üzgüçülük, stolüstü tennis, taekvondo, velosiped, voleybol və üzgüçülük növləri üzrə güclərini sınadılar. İdmançılarımız İslamiadanı 99 medalla başa vurdular: qazanılmış medallardan 29-u qızıl, 36-sı gümüş, 34-ü bürüncdür.

İdmançılarımızın başqa beynəlxalq idman tədbirləri kimi, V İslam Həmrəyliyi Oyunlarında da böyük tərkibdə iştirakı və kifayət qədər medal sayı ilə ifadə olunan nailiyyətlərimiz Azərbaycanın idman ölkəsi statusunu qoruduğunu, respublikamızda bu sahənin inkişafı ilə bağlı görülən tədbirlərin, xüsusi qayğının ciddi nəticələr verdiyini göstərir.

Azərbaycanın gənclər siyasətində idmanın inkişafına, onun kütləviliyinin artırılmasına daim diqqət yetirilib. Bu gün respublikamızda 50-yə yaxın olimpiya idman kompleksinin fəaliyyət göstərməsi, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına evsahibliyi etməsi, idmançılarımızın Olimpiya və dünya çempionatlarında uğurlu çıxışları bunun göstəricisidir. Beynəlxalq yarışlarda qələbə qazanan gənc idmançıların layiqincə qiymətləndirilməsi də onların yeni uğurlarında, gənc nəslin idmana marağının artmasında mühüm rol oynayır.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan gəncliyinin inkişafı ilə bağlı müəyyən etdiyi strateji kurs bu gün yeni mərhələyə qədəm qoyub. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir.

## Onlar inkişafın önündədirlər

Azərbaycan dövləti gənclərin beynəlxalq dialoquna, bəşəriyyəti narahat edən qlobal problemlərin birgə həllərinin axtarılmasına hər zaman xüsusi önəm verir. Bu, ölkəmizin sədri olduğu Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin yaradılmasında, həmin şəbəkənin Bakı konfransının keçirilməsində, ötən ay isə paytaxtımızda Hərəkata üzv olan 60-dan çox ölkənin təmsilçilərinin iştirakı ilə Gənclər sammitinin təşkilində bir daha öz ifadəsini tapdı.

Prezident İlham Əliyevin sammit iştirakçılarına ünvanladığı təbrik müraciətindəki fikirlər Azərbaycan gəncliyinə və onların timsalında müasir dünyamızda bu fəal təbəqənin yerinə və roluna münasibətin göstəricisi kimi böyük maraq doğurur: "Hər bir ölkənin sosial inkişafının, rifahının aparıcı qüvvəsi olan gənc nəsil həm də qlobal tərəqqinin lokomotividir. Çağırışlarla dolu müasir dünyada fəal və yaradıcı gənclər arasında dialoq bəşəriyyətin üzləşdiyi problemlərin müzakirəsinin, onların həllinə dair ideya və baxışların bölüşməsində vacib rol oynayır. Azərbaycanda əhalinin təxminən 23 faizini təşkil edən gənclərə diqqət və qayğı, onların milli-mənəvi dəyərlər və vətənpərvərlik ruhunda tərbiyə edilməsi dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir", - deyə dövlət rəhbərimiz müraciətində bildirirdi: "Bu gün Azərbaycanda milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi qurub-yaşadan, eyni zamanda ümumbəşəri, mütərəqqi ideyaları mənimsəyərək qloballaşan dünyada inteqrasiya etməyə qadir olan nəsil yetişib. Məhz bu milli dəyərlərə hörmət ruhunda böyümüş gənclərimiz 30 il işğal altında olmuş torpaqlarımızın azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində əvəzsiz xidmətlər göstəriblər. Biz belə gənclərimizlə fəxr edirik".

Bu fikirlərdə həm də bütün dövrlərdə olduğu kimi, müasir dövrümüzdə də gənc nəslə qayğının zəruriliyi, onlara öz potensiallarını reallaşdıra bilmələri üçün şəraitin yaradılması məsələləri aktuallaşdırılır. Eyni zamanda bəşəri problemlərin həllində müxtəlif ölkələrdən olan gənclər arasında dialoqun təmin edilməsinin əhəmiyyətinə diqqət yönəldilir. Qloballaşan dünyamızda gənclərin vətənpərvərlik ruhunda, milli-mənəvi dəyərlərə hörmət hissi ilə yetişdirilməsi, öz tarixi kimliyinə sahib çıxması, dövlətçilik dəyərlərini qoruması ilə bağlı ən vacib məqamlar vurğulanır.

Həmçinin Ali Baş Komandanın əmri ilə 44 günlük Vətən savaşında torpaqlarımızı işğaldan azad edən, bizi böyük qələbəyə qovuşduran və bu gün də dövlət sərhədlərimizin keşiyində dayanmış müzəffər Azərbaycan gəncliyinin misilsiz qəhrəmanlığı, Vətən sevgisi qiymətləndirilir.

## Dünya əhalisi gəncləşir

Azərbaycan dövləti hər zaman gəncliyə böyük diqqət və qayğı ilə yanaşıb. Eyni zamanda dünyada sülhün, əmin-amanlığın təmin edilməsi, mütərəqqi ideyaların həyat qazanması üçün beynəlxalq səviyyədə gənclər arasında dialoqa mühüm əhəmiyyət verib. Müasir dövrdə isə bu, xüsusilə aktualdır. Hazırda gənclik bütün dünyada tarixin heç bir dövründə olmadığı qədər böyük qüvvəyə sahibdir. İlk növbədə ona görə ki, dünya əhalisi tərkibində gənc nəslin yeri bəşər tarixinin heç bir dövründə olmadığı qədər genişlənib. Digər tərəfdən isə, gənclərin müasir bilik və bacarıqlara açıqlığı, yaradıcı təfəkkürü, sürətli dəyişikliklərə daha çevik uyğunlaşa bilmək əzmi, sahibkarlıq ruhu onları elmi-texnoloji inkişafın hərəkətverici qüvvəsinə çevirir. Ona görə də Azərbaycan dövləti ölkə gəncliyinin dəstəklənməsini, onlara lazımi şəraitin yaradılmasını, gənclərin potensialından cəmiyyət həyatının bir çox sahələrində istifadəni hələ illər əvvəldən özünün əsas prioritetlərindən elan edib və bu istiqamətdə ardıcıl iş aparılır.

Ölkəmiz gənclər sahəsində dövlət siyasətinin müasir çağırışlara uyğun zəruri qanunvericilik bazasının formalaşdırılması məsələsində də bütün dünyaya nümunə göstərir. Gənclərin sosial, iqtisadi və digər problemlərinin həllinə yönələn, onların inkişafına yol açan müxtəlif sənədlər imzalanır, müvafiq qanunlar, fərman və sərəncamlar, dövlət proqramları bu güclü təbəqənin ölkəmizdə mütəşəkkil qüvvə kimi çıxış etməsinə, ziyanlı təsirlərdən qorunmasına, mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına böyük kömək göstərir.

Aparılan məqsədyönlü siyasət Azərbaycan gəncliyinin həyatında yeni tarixi nailiyyətlərə yol açır.

## Böyük hədəflərə doğru

Gənclərimizin mənəvi inkişafı, yüksək vətənpərvərlik ruhu, xarici ölkələrin nüfuzlu ali məktəblərində müasir dövrün yüksək bilik və bacarıqlarına yiyələnə bilməsi, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həllinə kömək, ölkəmizdə gənclər təşkilatlarının fəaliyyəti üzrə mütərəqqi ənənələrin formalaşması, bu təbəqənin öz yenilikçi ideyalarını reallaşdırması üçün dövlətimizin təşəbbüsü və dəstəyi ilə həyata keçirilən ardıcıl tədbirlər, gənclərin sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına yaradılmış şərait, onlara etimad göstərilməsi ümumi mənzərənin ayrı-ayrı çalarlarıdır.

Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə təsdiqlənmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" dövlət proqramı, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" və bu çərçivədə görülən işlər, 2011-ci ildə Gənclər və İdman Nazirliyi yanında yaradılmış Gənclər Fondunun fəaliyyəti bu siyasətin daha səmərəli şəkildə həyata keçirilməsinə, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına yol açır. Böyüməkdə olan nəslin yaradıcı və innovativ potensialının üzə çıxarılmasını, sağlamlığının qorunmasını dəstəkləyir, onların təhsil və məşğulluq məsələlərinə diqqəti artırır, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadəni, könüllülük hərəkatını inkişaf etdirir.

Azərbaycan Prezidentinin 2007-ci ildə imzaladığı müvafiq sərəncamla "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar yaratmış, bu proqram çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında oxuyaraq müasir inkişaf ənənələrini, bilik və bacarıqları ölkəmizə gətirmişlər. Hazırda bu proqram yenidən bərpa edilmiş, təhsil, fərdi inkişaf sahəsində böyük hədəfləri olan gənclərimizin gələcəyi qarşısında geniş üfüqlər açmışdır.

Gənclərin təhsili ilə yanaşı, karyera inkişafı da dövlət rəhbərimizin daim diqqət mərkəzindədir. Azərbaycan Prezidentinin 2019-cu il 26 iyul tarixli sərəncamı ilə "Yüksəliş" müsabiqəsinin təsis edilməsi, artıq iki dəfə keçirilmiş bu müsabiqənin köməyi ilə gənclər arasından intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri fərqli olan perspektiv rəhbər şəxslərin müəyyənləşdirilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılması buna nümunədir.

Azərbaycanda könüllülük hərəkatı da inkişaf edir, bu gənclərimizin iştirakı ilə cəmiyyətimiz və ümumilikdə bəşəriyyət üçün böyük faydalar yaradır. Ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr, gənclərin bu layihələrə cəlb olunması, onlar üçün yaradılan parlaq örnəklər ölkəmizdə könüllülük hərəkatının genişlənməsinə təkan verir. Azərbaycan Prezidentinin 2020-ci ili ölkəmizdə "Könüllülər ili" elan etməsi də ölkə gəncliyinin inkişafı tarixində əlamətdar məqam kimi daim xatırlanacaqdır.

Elmi fəaliyyətlə məşğul olan gənclərin dəstəklənməsi istiqamətində də əhəmiyyətli işlər görülür. Gənc alimlərimizin apardıqları tədqiqatlar müxtəlif qrant proqramları ilə dəstəklənir, beynəlxalq əməkdaşlıq əlaqələri genişləndirilir. Son illərdə öz elmi nəticələrini dünyanın nüfuzlu nəşrlərində, beynəlxalq tədbirlərdə təqdim edən, xarici ölkələrin elmi mərkəzlərinin əməkdaşları ilə müştərək tədqiqatlara cəlb olunan gənc alimlərimizin sayı getdikcə artır.

## Minlərlə gənc canını Vətən uğrunda fəda etdi

Azərbaycan gəncliyi ən yüksək münasibətə layiqliyini, doğma torpaq, yurd sevgisini, cəsarət və fədakarlığını Vətən müharibəsində sübuta yetirdi. Bu müharibə böyük milli potensialımızı üzə çıxardı. Reallıq göstərdi ki, Azərbaycan müstəqillik dövründə dövlətçilik dəyərlərimizə bağlı, tarixi yaddaşı qoruyub saxlayan, vətənpərvər və əzmkar bir nəsil yetişdirib. Bu nəsil xalqın milli maraqlarının pozulmasına heç zaman yol verməz, haqqımız olanın əlimizdən alınması ilə barışmaz. Canı-qanı bahasına da olsa, Azərbaycanın adının, bayrağının ucalarda olmasını təmin edər.

Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad edən rəşadətli ordumuzun sıralarında minlərlə gəncimiz mətanətlə vuruşaraq qəhrəmanlıq salnaməsi yazdı. Düşmənə qisas hissi ilə kükrəyən, gur səsi ilə cəmiyyətimizi qələbə ovqatına kökləyən, inam yaradan əsasən gənclərimiz idi. Məhz onların igidliyi, haqq yolundan dönməzliyi sayəsində ərazi bütövlüyümüz bərpa edildi, otuz illik həsrətdən sonra əzəli-tarixi yurd yerlərimizə qovuşduq. Budur, vətənpərvərlik əzmi, ümidi doğrultmaq, azərbaycançılıq ruhunu qorumaq!

Azərbaycan gəncliyi hazırda Vətən naminə səylə çalışır, azad edilmiş torpaqlarımızı qarlı-şaxtalı səngərlərdə göz bəbəyi kimi qoruyur. Onun qarşısında həm də o torpaqların bərpası, abadlaşdırılması, sosial-iqtisadi dirçəlişi, yurdlarımızın yenidən gülüstana çevrilməsi missiyası durur. Dövlət rəhbərimizin yürütdüyü siyasətə dəstəyi, gələcək qarşısında məsuliyyət hissi, öyrənməyə, müasir dövrümüzün çağırışlarına uyğun yeni bilik və bacarıqlar əldə etməyə böyük meyli ilə inkişaf proseslərinin önündə addımlayır. Bu, qalib Azərbaycan gəncliyidir!

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

● Gələcəyə dəstək

# Bəşəriyyət sürətli dəyişmə və təsir prosesindən keçir

## Gənclər bunun zərərindən uzaq olub, faydasından bəhrələnməlidirlər

**Təhsil ailədən, məktəbdən başlayaraq, sonra da mədəni və sosial ölçüləri ilə bütün həyatımız boyu bizi tərk etməyən bir anlayışdır. Əgər təhsilə qısaca tərif versək, "Təhsil həyatın özüdür" deyə bilərik. Çünki insanın inkişafı, təcrübəsi və ya təkamülü kimi hadisələr təhsillə başlayır. Bundan əlavə, düşüncə tərzimizi və davranışımızı dəyişən, inkişaf etdirən təhsil həyatımızı daha yaxşı, daha gözəl və faydalı edən əhəmiyyətli bir sahədir.**

Bu bir həqiqətdir ki, cəmiyyətlərin, ölkələrin, hətta bütün dünyanın gələcəyi savadlı nəsillərlə sıx bağlıdır. Yaxşı təhsil ilk növbədə düzgün öyrənmə və öyrətməklə uğur qazanır. Buna nail olmaq üçün təhsil sahəsində sürətlə inkişaf edən texnologiyadan bəşəriyyətə maksimum fayda verəcək şəkildə faydalanmaq lazımdır.

Artıq 2000-ci ildən başlayaraq dünyamızda "Millenium" adlı yeni bir dövr başlayıb və bu dövrün uşaq və gəncləri tamamilə yeni nəsli təmsil edirlər. "İnternet gəncləri" də adlandırdığımız bu gənclər "Cib telefonu", "Ipod" və bütün qabaqcıl texnologiya alətlərini fərdi həyatlarının ayrılmaz hissəsi kimi qəbul edərək böyüyürlər. Amma bəzən də texnologiyaya o qədər aludə olurlar ki, düşünməyə belə vaxt ayıra bilmirlər. Düşünməyə vaxt tapmamaq isə istər-istəməz tənbəlliyə gətirib çıxarır. Ona görə də gənclərin çoxu işləməyi, zəhmət çəkməyi sevmirlər. İstər mobil telefonlarında, istərsə də kompüter vasitəsilə hər cür məlumat artıq ovuclarındadır. İstədikləri məsələni belə asan əldə etmək imkanı təəssüf ki, həm də vəfasız insan quruluşunun formalaşmasına gətirib çıxarır.

Gənclərimizin və uşaqlarımızın bu qədər rahat yaşamaq şansı əldə etməsi nəticəsində israfçılıq, asan və çoxlu pul qazanmaq kimi yararsız məşğuliyyətlərə yiyələnməyə də gətirib çıxarır. Bu faktların fonunda təhsil sistemləri yenidən planlaşdırılmalı və proqramlaşdırılmalıdır. Bütün bunları nəzərə alsaq, əslində, təhsilin necə çətinləşdiyini aydın şəkildə görə bilərik. Daim dəyişən dünya dəyərləri, qlobal iqtisadiyyat və sürətlə inkişaf edən kommunikasiya sistemləri gənclərin təkcə milli deyil, həm də qlobal səviyyədə maarifləndirilməsi zərurətini ortaya qoyur. Lakin yeni təhsilin həyata keçirilməsi üçün təkcə prinsiplər deyil, həm də iqtisadi şərtlərin sistemə tətbiqi çox vacib şərt kimi nəzərə alınmalıdır.

Bəşəriyyət çox sürətli bir dəyişmə və təsir prosesindən keçir. Biliyin toplanması, məlumat əldə etmək asanlığı və müasir ünsiyyət imkanları insanları sanki ofsunlayır. Yüz illərdir hər yeni ixtiranın, hər yeni texnologiyanın əsas məqsədi insanların həyatını asanlaşdırmaq olub. Bununla belə müasir insanlara geniş, demək olar ki, qeyri-məhdud imkanlar təqdim edən bütün yeni texnologiyalar fayda ilə yanaşı, zərər də gətirir. İnsanlar bəzən bir-birindən uzaqlaşır, özgələşirlər. Təbii ki, gündə yeddi-səkkiz saatını kompüter və ya mobil telefon qarşısında keçirən insan zamanla digər insanlarla təkbətək münasibət qurmaqda çətinlik çəkəcək. Başqalarını başa düşməkdə, anlayış göstərməkdə problemlər yaşayacaq.

Halbuki ruhumuz və beynimiz yalnız doğmalarımız, dostlarımız, tanışlarımızla vaxt keçirdiyimiz zaman dincəlir.

İnsanın insandan qaçması böyük təhlükədir. Sanki ətrafımızda olan hər kəs bu təhlükənin fərqində deyilmiş kimi davranır. Amma təəssüf ki, artıq dünyamızda insanların çoxu bundan təsirlənib. Bu səbəbdən humanitar məqsədlə bütün insanların və təbiətin rifahı üçün yeni bilik və avadanlıqlardan doğru istifadə etməyi öyrədən təhsil sistemi vacibdir.

Təhsil uşaqları yalnız ali təhsil səviyyəsinə çatdırmamalı, həm də kiçik yaşlarından həyata hazırlamalıdır. İdeal təhsil məhz bu əsas anlayışla qurulmalıdır. Şagirdlər yeni əsrin tələb etdiyi fundamental fənlər üzrə bilik, bacarıq və praktiki təcrübə əldə etməklə yanaşı, həyatı öyrənməli, qlobal təsirə məruz qalıb özündən, öz milli kimliyindən uzaqlaşmamalıdır.

Universiteti bitirmiş gənc artıq "onsuz da diplomumu aldım. Bundan sonra nə kitab oxumalı, nə araşdırma aparmalı, nə də yeni məlumatları izləməliyəm" deməməli, əksinə, onlara ömür boyu öyrənmənin vacibliyini anlatmaq lazımdır.

İnsanın xoşbəxtliyi üçün fiziki sağlamlıq qədər ruhi sağlamlıq da vacibdir. İnsanları xoşbəxt edəcək, uğura və sülhə aparacaq tək bir yol var. Bu yol daim öyrənməkdən, düşünməkdən, ictimai həyatda fəal rol oynamaqdan, problemləri anında həll edə bilmək bacarığından keçir. Ona görə gələcəyimizi əmanət etdiyimiz gənclərimizin şəxsi yaradıcılığını sosial dəyişikliklərə uyğunlaşdırmaq üçün davamlı səy göstərməliyik. Onlara həyatın tələbi kimi maliyyə sahəsində daha ağıllı davranmağı, multikultural dünyanı dərk etməyi, təbiəti qorumaq üçün ekoloji biliklərə malik olmağı, sosial mühitə asanlıqla uyğunlaşmağı, sağlam həyatın tələblərini yerinə yetirməyi, müşahidə qabiliyyətinə malik olmağı hələ orta məktəb vaxtı öyrətməliyik. Çünki sürətlə qloballaşan dünyamızın problemlərini gələcəyimiz adlandırdığımız gənclər həll edəcəklər. Sabah dünya insanları artan ekoloji problemlərlə, su çatışmazlığı, kənd təsərrüfatı torpaqlarının qıtlığı, əhalinin sürətli artımı, qlobal istiləşmə, yoxsulluq və terrorizmlə daha çox mübarizə aparmalı olacaqlar. Bu səbəbdən XXI əsrdə gənclər yalnız informasiya qəbul edən yox, eyni zamanda yeni informasiya istehsal edən, düşünən, yeni texnologiyalarda yeni məlumatları canlı saxlayan, lazımi xidmətlərin istehsalında və paylanmasında cəmiyyətin mənafeyi naminə fəal rol oynayan olmalıdırlar. Gənclərimiz komanda işinə meyilli, düşünməyə, araşdırmaya, problemləri yaratmaqdansa həll etməyə yönəldilməlidir. Bu cür gəncliyə və gələcəyə çata bilmək üçün təhsil sisteminin, hər bir təhsil işçisinin və cəmiyyət olaraq hər birimizin üzərinə çox böyük öhdəliklər düşür. Çünki gələcəyimizin taleyi indiki uşaqların şüurunda, qəlbində və iş qabiliyyətində gizlidir. Gələcəyimiz üçün sorğu-sual edən, düşünən, universal şəxsiyyətə malik, dərketmə gücü, təhsil və tərbiyə səviyyəsi yüksək olan övladlarımızın sayı artdıqca, dünyamız daha da gözəlləşəcək.

***İlahə ALLAHVERDİYEVA,***
***Naxçıvan Dövlət Universitetinin***
***Jurnalistika fakültəsinin IV kurs tələbəsi***

● Xəbər

# Şuşada şəhid və qazi övladları üçün "Xarıbülbül" yay düşərgəsinə start verilib




**Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin və "Böyük Qayıdış" Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə "Şuşa ili" çərçivəsində Qarabağın incisi, mədəniyyət beşiyimiz, azad Şuşada keçirilən şəhid və qazi övladları üçün "Xarıbülbül" yay düşərgəsinin rəsmi açılış mərasimi olub.**

Gənclər Fondundan bildiriblər ki, Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başlayan açılış mərasimində torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla anılıb.

Tədbirdə rəsmi şəxslər, tərəfdaş qurumların nümayəndələri, Vətən müharibəsi qaziləri, təşkilat üzvləri və media təmsilçiləri iştirak ediblər.

Dahi Bülbülün ev-muzeyində keçirilən tədbirdə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin idarə heyəti sədrinin müavini Tural Novruzov, Gənclər Fondunun icraçı direktorunun müavini Orxan Ərəbov, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Orucova və "Böyük Qayıdış" Gənclər Təşkilatının icraçı direktoru Nail Şükürov çıxış ediblər.

Çıxışlardan sonra tədbir musiqili-bədii hissə ilə davam edib. Yüksək vətənpərvərlik ruhunda keçən mərasimdə tanınmış incəsənət ustalarının və gənc musiqiçilərin ifalarında "Qarabağ şikəstəsi", "Xudayar Təsnifi (Vətən Yaxşıdır)", "Anadır arzulara hər zaman Qarabağ" kimi mahnılar və Şuşaya, Vətən müharibəsinə həsr olunmuş şeirlər səsləndirilib.

# İraq yenə çalxalanır



İraqın paytaxtı Bağdadda yenə silahlı toqquşmalar baş verib. Nəticədə 20 nəfər həlak olub, müxtəlif xəsarətlər almış 300-dən çox insan xəstəxanalara yerləşdirilib. Ölkədə komendant saatı elan edilib. Hökumət dövlətin təhlükəsizliyi ilə bağlı yaranmış mürəkkəb vəziyyətlə əlaqədar çərşənbə axşamını qeyri-iş günü elan edib. Bu barədə Qətərin "Əl-Cəzirə" telekanalı xəbər verir.

Tanınmış şiə lideri Müqtəda Sədr siyasətdən getdiyini və onunla bağlı olan təsisatların bağlandığını elan etdikdən sonra radikal din xadiminin tərəfdarları Bağdaddakı "yaşıl zona"ya hücum ediblər. Onlar paytaxtda hökumət idarələrinin və diplomatik nümayəndəliklərin yerləşdiyi və güclü mühafizə olunan əraziyə soxulmağa cəhd etsələr də, bunun qarşısı alınıb. Hücum nəticəsində azı 15 nəfər ölüb, 270 nəfər yaralanıb. Bu məlumatı AFP agentliyi və " Əl-Ərəbiyə" televiziya kanalı təqdim edib. Bildirildiyinə görə, Sədrin tərəfdarları ilə müxalif şiə qruplaşmasının nümayəndələri arasında atışma olub. Hərbçilər gözyaşardıcı qazdan istifadə edib, daha sonra isə bütün ölkədə komendant saatı tətbiq olunub. Etirazların İraqın digər şəhərlərinə də yayıldığı bildirilir.

Günün əvvəlində Müqtəda Sədr özünün tviter mikrobloqunda siyasətdən ömürlük uzaqlaşdığını, adı və ya ailəsi ilə bağlı bütün qurumların bağlanacağını qeyd edib. Bir neçə gün əvvəl isə imam bəyan etmişdi ki, bir neçə aydır davam edən siyasi böhranın həllinə kömək etmək üçün bütün partiyalar, o cümlədən onun partiyası dövlət vəzifələrindən imtina etməlidir.

### BMT-nin Baş katibi tərəfləri təmkinli olmağa çağırıb

BMT-nin Baş katibi Antonio Quterreş tərəfləri sakitliyə, təmkinli olmağa, dərhal gərginliyi azaltmağa çağırıb və zorakılığa qarşı xəbərdarlıq edib. O, böhrandan konstruktiv çıxış yolu kimi fikir fərqliliklərindən yuxarıda dayanmağın, habelə gecikmədən dinc və hərtərəfli dialoqa keçməyin vacibliyini vurğulayıb.

Birləşmiş Millətlər Təşkilatının İraqa Yardım Missiyası (UNAMI) nümayişçiləri hökumət məhəlləsini dərhal tərk etməyə çağıraraq, bunun son dərəcə təhlükəli gərginlik olduğunu bildirib. "Dövlətçilik təhlükə altındadır",- deyə missiyanın bəyanatında qeyd olunub.

Bu arada İranın İNA dövlət xəbər agentliyi və dövlət televiziyasının məlumatına görə, Müqtəda Sədr zorakılıqlar dayanana qədər aclıq aksiyasına başlayıb.

### İraqda siyasi böhran bir ildir ki, davam edir

İraqda siyasi böhran 2021-ci ilin oktyabrında Müqtəda Sədrin rəhbərlik etdiyi "As-Səyyirun" bloku seçkilərdə qalib gəldikdən, lakin hökumət qura bilmədikdən və şiə liderinin deputatlarını parlamentdən geri çağırmasından sonra təxminən bir ildir davam edir. Bir ilə yaxındır ki, İraq prezidentsiz və baş nazirsiz qalıb.

Ötən ay Sədr tərəfdarlarının yeni seçki tələbi ilə parlament binasını zəbt etməsindən sonra böhran kəskinləşib. İyulun 30-da radikallar yeni baş nazirin təyin olunmasının qarşısını almaq üçün parlamentə basqın ediblər. Avqustun 1-də iğtişaşlar fonunda Bağdada qoşunlar daxil olub. Avqustun 29-da isə növbəti eskalasiya baş verib.

Hakimiyyət uğrunda mübarizədə Sədrin başçılıq etdiyi hərəkat keçmiş hökumət başçısı Nuri Malikinin ətrafındakı siyasi opponentlərinin Nazirlər Kabineti qurmasına mane olmaq istəyir.

Xatırladaq ki, Səddam Hüseynin diktaturasının süqutundan sonra ABŞ İraqda proporsional idarəetmə sistemi tətbiq edib və bu sistemə əsasən, prezident postunu həmişə kürd icmasının nümayəndəsi, baş nazir vəzifəsini şiələrin təmsilçisi, parlamentin spikeri postunu isə sünnilərin nümayəndəsi tutur.

### Müqtəda Sədr kimdir?

48 yaşlı Müqtəda Sədr İraqın ali dini liderləri Əli Sistani və Əbdüləziz Hakimlə yanaşı, ölkənin ən xarizmatik dini və siyasi liderlərindən biri və şiə müqavimətinin simvoludur. O, keçmişdə ABŞ-ın İraqdakı mövcudluğunun ən səs-küylü əleyhdarlarından biri olub və ona tabe olan yarımhərbi birləşmələr dəfələrlə ABŞ ordusu ilə döyüşlərdə iştirak edib.

Sonradan Sədr həmin birləşmələri buraxıb və siyasi partiya yaradıb. Onun məqsədlərindən biri əksəriyyəti İrandan hərbi və maliyyə dəstəyi alan, həmçinin öz hərbiləşdirilmiş qruplarına malik olan digər şiə siyasi qüvvələrinə qarşı ittifaq yaratmaqdır. Onu da yada salaq ki, 2014-cü ildə Sədr artıq siyasi həyatda hər hansı bir iştirakdan imtina etdiyini və bundan sonra parlamentdə heç bir fraksiya ilə təmsil olunmayacağını bəyan etmişdi.

Son məlumata görə, Müqtəda Sədr tərəfdarlarını Bağdadda davam edən iğtişaşları dayandırmaq üçün bir saat ərzində meydan və küçələri tərk edib evlərinə qayıtmağa çağırıb. Mətbuat konfransı zamanı o, qarşıdurmadan təəssüfləndiyini bildirib. "Mən İraq xalqından üzr istəyirəm. Bu proses öz dinc xarakterini itirdiyinə görə onu inqilab adlandırmaq olmaz. Onun uğursuzluğa düçar olması daha yaxşı olardı".

Sədr həmçinin qeyd edib ki, İraq "korrupsiya və zorakılıq meydanına" çevrilib.

O, İraqın baş naziri Mustafa Kazımiyə, İraq təhlükəsizlik qüvvələrinə və "Həşd əl-Şəabi"döyüşçülərinə təşəkkür edib. Eyni zamanda siyasətçi ölkədə silahlı qruplaşmaların olmasını tənqid edib.

Sədrin çağırışından sonra İraqda komendant saatı ləğv edilib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Qubadlı rayonunda mina hadisəsi baş verib

Qubadlı rayonunda mina hadisəsi baş verib. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, avqustun 30-da işğaldan azad edilmiş Qubadlı rayonu ərazisində piyada əleyhinə mina hadisəsi baş verib.

Partlayış nəticəsində agentliyin minaaxtaran it bələdçisi 1984-cü il təvəllüdlü Hüseynov Nəcməddin Abdulla oğlu yüngül bədən xəsarətləri alıb. Əməliyyata cəlb olunan Belçika malinuası Dina ləqəbli minaaxtaran it həyatını itirib.




Hadisə tərəfimizdən araşdırılır, araşdırmanın nəticəsinə dair ictimaiyyətə əlavə məlumat veriləcək.

# Azərbaycanın ilk qadın Xalq şairi

**Bir əsrə sığmayan səksən doqquz illik ömür yaşayıb. Həyatı keşməkeşlərdə, tarixin çaxnaşmalarında keçib. Onun bu dünyada var olduğu səksən doqquz ildə məmləkətində dörd dəfə dövlət quruluşu dəyişib...**

**Mirvarid Dilbazinin 1912-ci il avqustun 19-da dünyaya göz açdığı kənd - Qazax qəzasının Musaköy (indiki Xanlıqlar) kəndi Şimali Azərbaycanın bütün əraziləri kimi, Rusiya imperiyasının tərkibində idi...**



### Zəhərə batırılmış badam içinə oxşayan uşaqlıq...

O, əsilzadə idi. Mənsub olduğu Dilbazilər Azərbaycanın məşhur nəsillərindən biridir. Türk əsillidirlər. Onlardan tarixi mənbələrdə Qaray, Qaraylı, Qaraman kimi bəhs edilib. Xanlıqlar kəndi tarixi yurd yerləri olub. Araşdırmalarda əvvəlki adının Xanoğulları kimi qeyd olunduğu bildirilib, Dilbazi isə ulu babaları Molla Ali ağanın ləqəbi olub. XVIII yüzilikdə yaşamış Molla Ali ağanın bu ləqəbi alması Nadir şahla bağlı əhvalatla əlaqələndirilir.

Tədqiqatlardan Dilbazilərin xanlıq, bəylik titullarının Səfəvilər dövrünə gedib çıxdığı məlumdur. İmtiyazları Əfşarlar, sonra xanlıqlar dövründə də qalıb. Çar Rusiyası Şimali Azərbaycanı öz müstəmləkəsinə çevirdikdən sonra Qafqazda ağaların, bəylərin hüquq və imtiyazları təsbit olunub. Bu hüquqlar Qazax mahalı üzrə Dilbazilərə də şamil edilib.

Dilbazilər bir çox sahədə məşhurlaşıblar. Şairlik şöhrətini bu soyada ilk bəxş edən isə Mirvarid Dilbazi olmayıb. Onun ulu babası, "Şair" təxəllüsü ilə şeirlər yazan Əbdürrəhman ağa Dilbazinin adı Azərbaycan ədəbiyyatı tarixində qalıb. Əbdürrəhman ağa Xanlıqlar kəndində dünyaya gəlib. Dövrünün mütərəqqi ziyalılarından olub. Bəzi mənbələrdə bildirilib ki, bədxahları igid, sözü üzə deyən, doğruları danışmaqdan çəkinməyən, əhali arasında böyük hörmətə malik Əbdürrəhman ağanın Qazax mahalını Cavad xana vermək istədiyini, onların əlbir olduqlarını, tez-tez görüşdüklərini Gürcüstan hakimi İrakliyə deyiblər. Qəzəblənən İrakli şairin gözlərini çıxartdırıb. Başqa bir söyləntiyə görə, Əbdürrəhman ağa Dilbazinin 1804-cü ildə Sisianovun Gəncə xanı Cavad xanı qətlə yetirməsinə həsr etdiyi divan başına bəla olub, gözləri həmin əsərə görə çıxarılıb.

Mirvarid Dilbazi 1994-cü ildə çap olunmuş "Bənövşələr üstə göz yaşları" xatirələr kitabında yazıb ki, XVII, XVIII və XIX yüzilliklərin axırınadək nəslimiz ziyalı-mülkədar nəsli olub: "Nəslimizdə müdrik, xalq hörməti qazanmış, Tiflisdə, Gəncədə mötəbər sayılan, çoxsaylı ziyalı dostları olan Böyük ağa, Çingiz ağa, Əbdürrəhim ağa, Baba Hüseyn ağa, İsmayıl ağa və adlarını unutduğum adlı-sanlı, səxavətli, xeyirxah yaşlı nəsli təmsil edən kişilər də yetişmişdi. Cavan atam da əmizadələrinin xeyirxah duyğuları ilə tərbiyələnib, inkişafa can atırdı".

Bəy ailəsində dünyaya gəlmişdi Mirvarid xanım. Bir xanım kimi böyüməli, nazı çəkilməli idi. Amma həyat ağır sınaqlarını ondan heç əsirgəmədi... Çəkdiyi acıları sonralar - 1998-ci ilin yanvarında "Biz od üstündə doğulduq" adlı məqaləsində qələmə aldı: "Mən ölümlər və sürgünlər, qadağanlar, milli qırğınlar və soyğunlar, milli təhqirlər, milli əsarət görmüş nəslin nümayəndəsiyəm. Uşaqlığım zəhərə batırılmış badam içinə oxşayır".

Dünya ləngər vurduqca, siyasət səhnəsi dəyişdikcə, hələlik olanlardan baş açmayan o balaca qızın da həyatına təsir göstərirdi... Cavan atası Paşa bəyi tez itirdi. Daş Salahlıda babası Mustafa ağanın mülkündə yaşamalı oldu. Baxdığı hər yer - Damcılı, Dilican yaylaqları əsrarəngiz təbiət mənzərələri ilə gözlərini oxşayır, ona gözəllikləri sevməyi öyrədirdi. Bir də o zamanlar görüb-götürdüyü ailə ənənələri, ona örnək olan doğmalarının tövsiyələri sonralar da harayına çox çatacaqdı...

O illərdə yaşadıqları böyük bir sevinc də olub. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulub. Müstəqil dövləti alqışlayan, bərqərar olması, güclənməsi üçün əllərindən gələni əsirgəməyənlər arasında Dilbazilər də vardı. Lakin milli dərdləri daha böyük oldu. Şair yada salırdı ki, 1920-ci ildə kəndlərimizə qəfil erməni hücumları, az ömürlü, iztirablı qaçqın günlərimiz bir-birini əvəz edirdi...

1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətini süquta uğradıb hakimiyyəti ələ keçirən bolşeviklər yeni qaydalar, sərt qadağalar tətbiq etməyə başladılar. Bütün xanlar, ağalar, bəylər kimi, Dilbazilər də imtiyazlarından məhrum edilib, torpaqları əllərindən alınıb. Keçmişlərini isə sovet rejimi unutmayıb. Təqiblərə, həbslərə, sürgünlərə, repressiyalara məruz qalıblar. Azərbaycanda sovet hakimiyyətini qəbul etməyən Dilbazilərin əksəriyyəti ya evindən, vətənindən qaçaq düşüb, ya da məhv ediliblər. Qalanlar isə nə qədər çətin olsa da, yollarına davam ediblər. 1921-ci ildə anası və bacısı ilə Bakıya köçən Mirvarid Dilbazinin o illərdə oxuyub öyrənməyə böyük marağı olub. Bacısı Yaqut Dilbazi ilə birlikdə qızlar seminariyasında dövrün görkəmli pedaqoqlarından dərs alıb.

Axşamlar Nərimanov arvadı Gülsüm xanımla vaxt tapıb məktəbə gəlirdi. Seminariyanın şagirdləri onların başına toplaşırdılar. Nəriman Nərimanov onlara şeir əzbərlətdirir, nəğmə oxutdurur, dərslərini yoxlayırdı. Keçmişdən, gələcəkdən maraqlı söhbətlər edirdi. Xüsusilə gələcək barədə elə şirin danışırdı ki, onu dinləyən uşaqlar quş olub, o gözəl gələcəyə uçmaq istəyirdilər: "Nərimanov özü də buna inanırdı. O, fikrə gedəndə biz çiyninə söykənir, ona sığınırdıq. Məktəbimizdən gedəndə isə yaman darıxırdıq. Doktor Nərimanov bizim üçün dünyanın ən əziz, ən doğma, ən maraqlı insanlarından biri idi", - Mirvarid xanım yazır, sonra isə Nəriman Nərimanovla son görüşlərini yada salırdı...

Bir axşam yenə məktəbin çıraqları yanıb, böyük salonda Nərimanovun ətrafına toplaşıblar. O, gec ayrılıb gedib. Bir neçə ay gözləri yolda qalıb. Ancaq Nərimanov bir daha gəlməyib. Sonradan öyrəniblər ki, onu Moskvaya aparıblar. 1925-ci ildə Nərimanovun ölüm xəbərini eşidiblər...

### Həyatın məngənəsində...

İyirmi altı yaşından dul qalmış, bütün ümidini onlara - iki qızına bağlamış anaları ilə Bakıda da çox çətin günlər keçiriblər. O ağrılı-acılı vaxtlarını Mirvarid xanım qüssə ilə xatırlayırdı: "Bacım Yaqutla mən bir "ləğv" olunmuşların qalqısı idik. Odur ki, bizim haqqımızda yaxşı insanlar yaxşı söz deməkdən çəkinirdilər. Şükür ki, pis söz də deyən yoxdu. Mərkəzdə oxuduğumuz ali məktəblərdən Xanlıqlar, Daş Salahlı kəndlərinə bizim haqqımızda göndərilən sorğulara xeyrimizə cavablar gəlirdi. Biz iki bacı, bir ana camaatın köməyi ilə sürgünlərdən, qırğınlardan uzaq olduq. Lakin maddi məhrumiyyətin pəncəsindən qurtara bilmədik. Çünki var-yoxumuz babamın evində qalmışdı".

İçərişəhərdə məşhur folklorşünas Əbülqasım Hüseynzadənin evində dəmir çarpayı, kiçik divan, qarğı kitab rəfi və balaca yemək stolundan başqa heç nəyi olmayan 9-10 kvadratmetrlik bir otaqda qalırdılar. Mirvarid xanım xatırlayırdı: "Biz iki bacı orta məktəbdə müəllimlik edirdik. Qeyrətli ana bu az pulla bizi gözütox, ürəyişad, gələcəyə ümidlə dolandırdı. O illər ölkədə hər şey qıt, bəlkə də yox idi. Geyim-kecim üçün hökumət qızıl mağazası açmışdı. Biz iki bacı da seminariyadan aldığımız iki qızıl medalı və anamızın əldə olan-qalan qızıl ziynətlərini verib oradan bir-iki dəst paltarlıq parça aldıq".

İçərişəhərdəki o kiçik otağın alçaq pəncərəsinin taxtası gənc Mirvarid xanıma yazı stolunu əvəz edib. Sonralar Nəvainin "Fərhad və Şirin" əsərinin tərcüməsi, 1941-ci ilədək nəşr olunan şeirləri və poemaları həmin pəncərə qarşısında yaranıb.

Mirvarid Dilbazi Qızlar Seminariyasını bitirəndən sonra Biləcəridəki onillik dəmiryol məktəbində işləyib. İlk günlərdən bacarıqlı müəllim kimi tanınıb. 1928-ci ildən şəhərdə rus məktəbində dərs deyib. Ali təhsil almaq niyyətindəydi. O da, bacısı Yaqut xanım da Ali Pedaqoji İnstituta daxil olublar. Ancaq maddi ehtiyaclar ucbatından Yaqut xanım 19 nömrəli məktəbdə işləyib ki, kiçik bacısı ali təhsil ala bilsin. Mirvarid xanım Ali Pedaqoji İnstitutun Ədəbiyyat-ictimaiyyət fakültəsində təhsil alıb. Sabit Rəhman, Cəfər Xəndan, Məmməd Rahim də o zaman həmin ali məktəbin tələbələri idilər. Əli Nazim, Əli Sultanlı, Bəkir Çobanzadə unudulmaz müəllimləri olublar. Əli Sultanlının Qərb, Əli Nazimin proletar ədəbiyyatından dərs dedikləri heç vaxt xatirindən çıxmayıb.

Mirvarid Dilbazi bədii yaradıcılığa təhsil illərində başlayıb. 1927-ci ildə "Oktyabr alovları" adlı jurnalda "Qadınların hürriyyəti" adlı ilk şeiri işıq üzü görüb. 1920-ci illərin sonlarında qələmə aldığı "Zəhra", "Qurtuluş", "Qadın" şeirləri də həmin jurnalda dərc olunub.

Ali məktəbi 1932-ci ildə bitirib. Qubaya işə göndərilib. Quba Partiya Məktəbində müəllim işləyib. İki il sonra Bakıya dönüb. 1934-1938-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Əlyazmaları Fondunda şöbə müdiri, 1938-1940-cı illərdə Azərbaycan Dövlət Nəşriyyatında tərcüməçi işləyib.

Yenə həyatın ağır sınaqlarından keçirdi... Mirvarid Dilbazi 1920-ci ildən başlayaraq üzləşdikləri faciələri illər sonra qüssə ilə yada salırdı: "Toplu-tüfəngli "qızıl" ordunun işğalıyla kəndlərimizdə dəyişən həyat tərzi, sinfi mübarizə şüarı altında həbslər, sürgünlər, kütləvi ölümlər, dağıdılan əmlaklar, 37-ci ilin fəlakətli günləri, gecələr döyülən qapılar, 18 yaşlı dayımın aparıldığı qara maşının arxasınca tökülən göz yaşlarımız, onun Sibir cəhənnəmindən gələn məktubları, babamın həbsi, daha nələr... nələr..."

Bütün bunların ağrısı onun uşaqlıq və gənclik illərində ürəyindən keçib. Anası hazırladığı xörəyi, paltarı qoca, günahsız məhbus atasına vermək üçün gəncliyə yenicə qədəm qoyan iki qızı ilə birgə dəniz qırağındakı həbsxananın qapısı önünə səhər gedib, axşam qayıdıb.

1930-cu illərin "təmizləmə" dövründə Mirvarid Dilbazinin babasını da güllələnənlərin siyahısına salıblar: "Lakin xeyirxah camaat qocanın ağ saqqalını qana bulanmağa qoymadı. Onu ölümə verilənlərin doldurulduğu damdan çıxardılar, sürgündənsə saxlaya bilmədilər. Onun 18 yaşlı oğlu ilə birlikdə qəbri Qazaxıstan çöllərində qumlar altda qaldı. Ağbirçək nənəm ordan tək qayıtdı. Ziyalı dayılarımın qəbirləri Türkiyənin Amasiya şəhərində bir dağ ətəyində, anamın, nənəmin qəbirləri Bakıdadır". Beləcə, böyük bir ailənin üzvlərindən heç birinə doğma kənd torpağında, nənə-babalarının, ata-analarının yatdığı məzarlıqda dəfn edilmək qismət olmayıb. 1937-ci ildə sovet hakimiyyətinin repressiya siyasətinin güdazına gedən, sürgün olunduğu Qazaxıstanda dünyasını dəyişən babası Mustafanın qəbri indiyədək naməlumdur.

### Asfaltı yarıb göyərən ot kimi çətinlikləri yarıb keçənlər

Yaradıcılıq yolu da asan olmayıb. Çox çətinliklərlə üzləşsə də, qələmdən, əməkdən, qeyrətdən, xalqına, sənətinə məhəbbətdən başqa köməkçisi olmayıb. Onlar bir sinif kimi ləğv olunmuşların övladları idilər. Lakin arasında boya-başa çatdıqları kənd camaatına borclu sayırdılar özlərini. Aldadılmış, qorxudulmuş o camaat öz milli xeyirxahlıq duyğularına sadiq qalaraq "mərkəz"dən göndərilən suallara Mirvarid xanımgilin xeyrinə cavab verirdi. "Biz bu xeyirxahların köməyi ilə asfaltı yarıb göyərən ot kimi çətinlikləri yarıb keçdik, öz varlığımızı, etiqadımızı saxlaya bildik", - deyirdi Mirvarid Dilbazi.

Xalq artisti olan Əminə Dilbazinin qardaşı Rəşidlə ailə qurub. Əmiuşağı idilər. 1942-ci ildə Rəşid Böyük Vətən müharibəsinə yollanıb. O, gedəndən sonra qızı dünyaya gəlib. Mirvarid xanım Xatirə adını verdikləri övladına həm ana, həm də ata olub. Səməd Vurğunun məsləhəti ilə ikinci dəfə ailə həyatı quranda isə o, artıq nənə idi, bir nəvəsi vardı.

Mirvarid Dilbazi şeirlər, "Məshəti", "Əlcəzairli qız", "Partizan Aliyə", "Avey dağla söhbət" və digər poemalar, "Xocalı fəryadı", "Məhsəti" pyeslərini qələmə alıb. Xaqani Şirvani, Nizami Gəncəvi, Əlişir Nəvai, Aleksandr Puşkin, Taras Şevçenko, Nikolay Tixonov, Samuel Marşak və başqa şairlərin əsərlərini, Evripidin "İppolit" faciəsini Azərbaycan dilinə tərcümə edib. Əsərləri xarici dillərə tərcümə olunub. Bəstəkarlardan Fikrət Əmirov, Ağabacı Rzayeva, Süleyman Ələsgərov, Tofiq Quliyev, Şəfiqə Axundova və başqaları şairin sözlərinə mahnılar, romans və oratoriyalar bəstələyiblər.

Müxtəlif illərdə Dövlət mükafatına, Xalq şairi, Əməkdar mədəniyyət işçisi adlarına, "Əmək igidliyinə görə" medalı, iki dəfə "Şərəf nişanı", "Qırmızı əmək bayrağı", "İstiqlal" ordenlərinə layiq görülüb.

1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində baş verən hadisələr Mirvarid Dilbazini də sarsıtdı. Ömrünün ahıl çağında yenidən erməni xəyanəti ilə üzləşmək onu dəhşətə gətirdi. Gözəlliyinə heyran olduğu Qarabağ torpağı, meşələrinin nəğməsini dinlədiyi, dağlarının havasını udduğu, buz bulaqlarının suyunu içib qoynunda dincəldiyi Ağdam, Şahbulaq, Abdal Gülablı cənnəti üzərinə yağdırılan raket, top mərmilərinin ağrısı sanki onun ürəyindən keçirdi. Xalq şairi Vətən oğullarını dönməzliyə, vüqarlı olmağa səsləyirdi.

Yurd-yuvasından didərgin düşmüş qaçqın və köçkünlərimizə həsr etdiyi "Ağla, kamanım, ağla", "Qoymayın ağlayım məni", 20 Yanvar faciəsi ilə bağlı yazdığı "Öpün bu qanlı torpağı", "Şəhidlər qəbiristanında", "Qanlı yanvar bayatıları" və digər şeirləri o faciəli tarixi əks etdirib. Kədərini, sevincini kövrək misralara çevirən şair ömrünün payız çağlarında xalqımızın qələbəsini görmək arzusu ilə yazıb-yaradırdı:

Odum, ocağım,
Ana qucağım
Qalsam həyatım,
Ölsəm torpağım, Azərbaycanım!

Ömrünün ahıl çağında Qarabağ dərdi bütün dərdlərini üstələyib. Qarabağ niskili ilə dünyasını dəyişib. Mirvarid Dilbazi 2001-ci il iyulun 12-də vəfat edib.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***




# Son sutkada Azərbaycanda COVID-19 infeksiyasına 568 yoluxma faktı qeydə alınıb

Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 568 yoluxma faktı qeydə alınıb, 612 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, indiyədək ölkədə ümumilikdə 812 min 816 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 799 min 479 nəfər müalicə olunaraq sağalıb, 9 min 805 nəfər vəfat edib. Aktiv xəstə sayı 3 min 532 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 4 min 28, dünənə qədər isə ümumilikdə 7 milyon 151 min 214 test icra olunub.

# Avqustun 30-da Azərbaycanda COVID-19 əleyhinə 1677 doza vaksin vurulub

Avqustun 30-da Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə 1677 doza vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci doza üzrə vurulan vaksinlərin sayı 320, ikinci doza vaksinlərin sayı 312, üç və daha çox doza vaksinlərin sayı 890, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı 155-dir. Azərbaycanda dünənə qədər vurulan vaksin dozalarının ümumi sayı 13 milyon 858 min 788, birinci mərhələ üzrə vurulan peyvənd dozalarının ümumi sayı 5 milyon 373 min 573, ikinci mərhələ üzrə 4 milyon 862 min 806, üç və daha çox doza vaksinlərin sayı 3 milyon 363 min 343, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı 259 min 66-dır.



## AZƏRBAYCAN RESPUBLİKASI ELM və TƏHSİL NAZİRLİYİ AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)

*2022/2023-cü tədris ilində aşağıdakı ixtisaslar üzrə ödənişli əsaslarla*

**təkrar ali təhsil almaq üçün sənəd qəbulunun müddəti 2022-ci ilin oktyabr ayının 15-dək uzadılmışdır**

- 050406 Maliyyə
- 050409 Mühasibat
- 050405 İqtisadiyyat
- 050401 Beynəlxalq ticarət və logistika
- 050410 Statistika
- 050408 Menecment
- 050404 Dövlət və bələdiyyə idarəetməsi
- 050402 Biznesin idarə edilməsi
- 050407 Marketinq
- 050807 Sosial iş
- 050504 Ekologiya
- 050616 İnformasiya texnologiyaları
- 050615 İnformasiya təhlükəsizliyi
- 050509 Kompüter elmləri
- 050638 Sənaye mühəndisliyi
- 050606 Ekologiya mühəndisliyi
- 050635 Qida mühəndisliyi
- 050622 Maşın mühəndisliyi
- 050623 Materiallar mühəndisliyi
- 050619 Kommunikasiya sistemləri mühəndisliyi
- 050607 Elektrik və elektronika mühəndisliyi
- 050306 Dizayn (sahələr üzrə)

**UNEC-in Zaqatala filialı üzrə**

- 050406 Maliyyə
- 050405 İqtisadiyyat
- 050409 Mühasibat
- 050408 Menecment
- 050616 İnformasiya texnologiyaları
- 050402 Biznesin idarə edilməsi
- 050407 Marketinq
- 050810 Turizm işinin təşkili

Təkrar ali təhsilə sənəd qəbulu ancaq elektron qaydada **http://www.kabinet.unec.edu.az** internet linki vasitəsilə həyata keçirilir. Qeyd olunan ixtisaslara qəbul olmaq istəyənlər tələb olunan sənədləri elektron qaydada təqdim edir və müvafiq tələblərə cavab verdikləri halda təkrar ali təhsil almaq hüququnu qazanırlar.

***Təkrar ali təhsil almaq istəyənlər aşağıdakı sənədləri elektron formada təqdim etməlidirlər:***

- Rektorun adına ərizə;
- Ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiqlənmiş surəti (diploma əlavə ilə birlikdə);
- 3x4 sm ölçüdə fotoşəkil;
- Şəxsiyyət vəsiqəsinin surəti.

**QEYD:** 1993-cü ildən sonra xarici ölkələrdə ali təhsil almış şəxslər yalnız diplomları mövcud qaydada Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən tanındıqdan sonra universitetdə təkrar ali təhsil ala bilərlər.

**Ünvan: Akademik Həsən Əliyev küçəsi, 135, otaq 518**
**Tel.: (012) 564 38 92**
**Mobil: (070) 578 08 59 (həmçinin WhatsApp ünvan)**
**Facebook ünvanı: https://www.facebook.com/unectekraralitehsil/**




# OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 02.09.2022-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

# "Azercell" Süni İntellekt əsaslı Virtual Assistent xidmətini istifadəyə verir

## Bundan sonra "Azercell" Telefon Mərkəzinə zəng edən abunəçiləri Aİcell adlı Virtual Assistent salamlayacaq

"Azercell" ölkənin telekom bazarında ilk Telefon Mərkəzi Virtual Assistent xidmətini - AIcell-i məmnuniyyətlə təqdim edir! Bu texnoloji yenilik Süni İntellekt əsasında çalışır və abunəçilərinin müştəri təcrübəsini zənginləşdirmək üçün tərtib olunub.

Xidmətin pilot mərhələsində "Azercell" Telefon Mərkəzinə zəng edən abunəçiləri AIcell adlı Virtual Assistent salamlayacaq və müştərinin sual və istəyini öyrənərək zəngi operatora yönləndirəcək. "Azercell" tədricən Virtual Assistentin ünsiyyət funksiyalarını və xidmət imkanlarını genişləndirərək, abunəçi istəklərini daha fərdiləşdirilmiş şəkildə həll etmək üçün şərait yaradacaq.

Qeyd edək ki, səs emalı botları telekommunikasiya sənayesində texnoloji sıçrayış hesab olunur. Layihənin ən vacib və maraqlı aspektlərindən biri isə Virtual Assistentin Azərbaycan dilində tam spektrli xidmət göstərməsidir ki, bu da öz növbəsində müştərilərə yeni təcrübə imkanları yaradacaq.

"Azercell Telekom" MMC "Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" strateji məqsədinə əsaslanaraq ölkədə innovativ həllər və rəqəmsal xidmətlərin tətbiqini davam etdirmək niyyətindədir.

# "Azərişıq" ASC-nin rəhbəri Qubada vətəndaşları qəbul edəcək

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, ASC-nin sədri Vüqar Əhmədov avqustun 31-i saat 10:00-da Quba şəhərində Quba və Qusar rayonlarından olan vətəndaşları qəbul edəcək. Qəbul Quba şəhəri H.Əliyev prospektində yerləşən Heydər Əliyev Mərkəzində keçiriləcək.

Qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən baş tutacaq.

Qəbulda iştirak etmək istəyən şəxslər Quba Elektrik Şəbəkəsinə və ya "Azərişıq" ASC-nin 199 çağrı mərkəzinə, onlayn isə info@azerishiq.az elektron poçt ünvanına müraciət etməklə qeydiyyatdan keçə bilərlər.

Vətəndaşların diqqətinə çatdırılır ki, qəbulda müraciətlər yalnız "Azərişıq" ASC-nin fəaliyyət istiqamətinə aid məsələlərlə bağlı olmalıdır.

Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq, qəbulda peyvənd və ya immun sertifikatı, eləcə də əks-göstəriş sertifikatı olan şəxslər iştirak edə bilərlər.

# Laçın şəhərində, Zabux və Sus kəndlərində işığımız yandı

Avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri Azərbaycanın nəzarətinə keçən kimi, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq sözügedən ərazilərin ən qısa vaxtda elektrik enerjisi ilə təchiz edilməsi üçün təxirəsalınmaz işlərə başlanılıb.

Belə ki, "Azərenerji" ASC-nin Laçın şəhərində ermənilər tərəfindən tamamilə dağıdılmış mövcud yarımstansiyanın il-




kin bərpası istiqamətində fasiləsiz işlər görüb. Əraziyə transformatorlar, lazımi avadanlıq və texnika gətirilərək cəmi 4 sutka ərzində sürətlə iş aparılaraq ölkə enerji sistemi ilə əlaqələnmiş sistem şəbəkəsi yaradılıb.

Nəticədə Laçın şəhəri, Zabux və Sus kəndlərində Azərbaycan işığı yandırılıb. "Azərişıq" əməkdaşları Laçın şəhəri, Zabux və Sus kəndlərindəki hərbi və mülki obyektləri enerji ilə təmin edib. Hazırda digər zəruri tədbirlər həyata keçirilir.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə və şəhid ailələrinə Göygöl, Salyan, Lənkəran rayonlarında və Mingəçevir, Şirvan şəhərlərində 1, 2 və 3 otaqlı olmaqla ümumilikdə 206 ədəd mənzillərin satın alınması ilə əlaqədar *açıq tender elan edir*

Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə və şəhid ailələrinə Göygöl, Salyan, Lənkəran rayonlarında və Mingəçevir, Şirvan şəhərlərində 1, 2 və 3 otaqlı olmaqla ümumilikdə 206 ədəd mənzillərin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (Telefon: (012) 596-44-09) ünvanından ala bilərlər.

İştirak haqqı : Nəzərdə tutulmur.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
3. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir); 01.08.2022-ci il tarixdən sonra alınan arayış qəbul ediləcəkdir.*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti ( 2021-ci il üzrə).*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir, yalnız 01.08.2021-ci il tarixdən sonra alınan arayış qəbul ediləcəkdir.*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (müvafiq təsdiqedici sənədlər təqdim edilməlidir).*
8. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması.
9. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması.*
10. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması.*
11. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi ("ASAN xidmət" mərkəzlərindən və ya DİN tərəfindən təqdim edilən məhkumluq barədə arayış).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) 05 oktyabr 2022-ci il saat 15:00-dək, tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə 13 oktyabr 2022-ci il saat 15:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 14 oktyabr 2022-ci il saat 15:00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Ceyhun Məmmədova atası

**VALEH MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri komitənin üzvü Ceyhun Məmmədova atası

**VALEH MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Milli Məclisin deputatı Ceyhun Məmmədova atası

**VALEH MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov general-leytenant

**NAZİM XEYRULLA OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Sumqayıtdan Zakir Fərəcov Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini, daxili xidmət general-leytenantı

**NAZİM MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Nəsirəddin Tusi adına Klinikanın kollektivi şüa diaqnostikası üzrə həkim Elçin Nəsibova anası

**DİLARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6371
Sifariş 2449
Qiyməti 40 qəpik